www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  29 iyun 2018-ci il  Cümə  № 138  (7027)  Qiymıəti  60 qəpik

Xəbər

## Bakıya Afrika istiləri gəlib

yazısı səh.12-də

Gündəm

### ABŞ-ın Azərbaycandakı səfir postu üç aydır boşdur



"Görünür, Bakı ilə Vaşinqton arasında hələ razılaşdırılmayan ciddi məsələlər var"

yazısı səh.3-də

### "GünayBank"da 100 milyonluq mənimsəmənin yeni təfərrüatları

yazısı səh.6-da

### Bəşər Əsədin təyyarələri Azərbaycan üzərindən uçur

yazısı səh.7-də

### Avropa Birliyindən Azərbaycana qarşı 3 milyonluq addım

yazısı səh.9-da

### Paytaxtda tıxac problemi: daha 3 gün səbr edin...

yazısı səh.6-da

### Türkiyə-Aİ danışıqlarında yeni çatlar

yazısı səh.8-də

### Oliqarxların tikdirdiyi binalar boş qalıb

yazısı səh.14-də

### PKK-nın siyasi qanadı HDP-yə Bakıdan dəstək verənlər

yazısı səh.9-da

### Fədayə Laçının işi məhkəməyə göndərilir

yazısı səh.10-da

### Abutalıbovun batırdığı Bakının baş planı

yazısı səh.12-də

### Deputat oğlunun adı keçən məhkəmədə ilginc faktlar açıqlandı

yazısı səh.14-də

# İRƏVANIN "İSLAHATLARI" ABŞ-I "QORXUTDU" - SƏRKİSYAN BAKIYA GƏLƏCƏK?

**Amerikalı diplomatdan Paşinyana xəbərdarlıq:** "Elə etməyin ki..."; Ermənistanın baş naziri ilə prezidenti arasında çəkişmə böyüyür - səbəb; ABŞ-da səfərdə olan Armen Sərkisyan Ağ Evdə niyə qəbul edilmədi? erməni qəzetindən şok iddia...



yazısı səh.7-də

# MTN generalları "qırmızı zon"da

## Onlar 9 saylı cəzaçəkmə müəssisəsinin xüsusi korpusunda saxlanılır

yazısı səh.3-də



### Ədalət Vəliyev niyə nazir müavini ola bilmədi - müəmma

yazısı səh.10-da



### Səməd Seyidovun ittihamlarına QHT rəhbərlərindən reaksiya

yazısı səh.5-də



### Fazil Məmmədov "American Hastanesi"nə yerləşdirilib

yazısı səh.5-də

# Azərbaycan “Leopard” tanklarının istehsalçısı ilə danışıqlar aparır



## Ərdoğanın ilk iki rəsmi səfəri Şimali Kiprə və Azərbaycana olacaq

**Rəcəb Tayyib Ərdoğanın prezident idarə üsuluna keçmiş Türkiyənin ilk prezidenti kimi birinci rəsmi səfəri Şimali Kiprə və Azərbaycana olacaq. Bu barədə Türkiyə mətbuatı yazıb.**

Bildirilir ki, Türkiyə prezidentinin Şimali Kiprə və Azərbaycana səfəri iyulda planlaşdırılan inauqurasiyadan sonra baş tutacaq.

R.T.Ərdoğanın inauqurasiya mərasiminin dəqiq tarixi barədə hələ məlumat verilmir.

Qeyd edək ki, iyunun 24-də Türkiyədə prezident və parlament seçkiləri keçirilib. Prezident seçkilərində R.T.Ərdoğan 52,5 faiz səslə qalib gəlib. Müxalif Cümhuriyyət Xalq Partiyasından olan Məhərrəm İncə isə səslərin 30,7 faizini toplayıb.

## Şeyx Dağıstanda səfərdədir

**Milli Məclisin sədri Oqtay Əsədov və Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin rəhbərlik etdiyi Azərbaycanın nümayəndə heyəti Mahaçqalada səfərdədir.**

Unikal.org RİA “Dağıstan”a istinadən xəbər verir ki, nümayəndə heyəti Dağıstanın görkəmli dövlət və ictimai xadimi Maqomedsalam Umaxanovun 100 illik yubileyi münasibətilə keçiriləcək təntənəli mərasimlərdə iştirak edəcək.

Mahaçqala hava limanında fəxri qonaqları Rusiya Federal Məclisinin Federasiya Şurasının sədr müavini İlyas Umaxanov, Dağıstan hökumətinin sədri Artyom Zdunov, Dağıstanın müftisi şeyx Əhməd-Hacı Abdullayev və başqaları qarşılayıblar.

## Əkin sahələrini yandıranlar cərimələnəcəklər

**Əmlak Məsələləri Dövlət Komitəsi vətəndaşlara müraciət edib. Komitə bəyan edib ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən əkin sahələrinin yandırılması inzibati məsuliyyət yaradır.**

Komitə tərəfindən aparılan müşahidələrə əsasən, mövsümi biçin işlərinin başlanması nəzərə alınaraq kənd təsərrüfatı məhsulları əkilmiş, o cümlədən taxıl sahələrinin biçinindən sonra yandırılması halları müşahidə edilir: “Əhalinin nəzərinə çatdırılır ki, təsərrüfatlarda kövşənin, yəni məhsulu biçilmiş əkin sahələrinin yandırılması qadağandır və bu işlərə yol vermiş şəxslər cərimələnəcəklər. Əhalinin nəzərinə çatdırılır ki, İnzibati Xətalar Məcəlləsinin 244-1 maddəsinə əsasən əkin yerlərinin yandırılmasına görə fiziki şəxslərin 400 manatdan 600 manatadək məbləğdə, vəzifəli şəxslərin 1500 manatdan 2000 manatadək məbləğdə və hüquqi şəxslərin 5000 manatdan 6000 manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulub”.

## “Çudo Peçka”nın sahibi ev dustaqlığına çıxmaq istəyir

**Bakı Ağır Cinayətlər Məhkəməsində “Çudo Peçka” və “ÇP Aqro” MMC-lərin təsisçisi Çingiz Cəlilovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. “Report”un xəbərinə görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə Ç.Cəlilovun vəkili Janna Bağırova vəsatət qaldırıb.**

O bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxsin səhhətində ciddi problemlər var. Vəkil müvəkkilinin barəsində seçilmiş həbs-qətimkan tədbirinin ləğv edilib ev dustaqlığı ilə əvəz olunmasını istəyib.

Daha sonra J.Bağırova vəsatət qaldıraraq cinayət işində Maliyyə-Mühasibatlıq Ekspertizasının yenidən keçirilməsini tələb edib.

Vəsatətlərlə bağlı qərar növbəti məhkəmə iclasında elan olunacaq.

Məhkəmənin növbəti iclası iyulun 12-nə təyin edilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

**Almaniyanın “Rheinmetall” (“Reynmetall”) hərbi sənaye korporasiyası Azərbaycanla əməkdaşlıq barədə danışıqlar apardığını elan edib. Virtualaz.org “Reuters”ə istinadən xəbər verir ki, Düsseldorfda mənzillənmiş şirkət bu barədə iyunun 27-də bildirib.**



“Biz Azərbaycanla biznes imkanlarını araşdırırıq. Hər iki tərəf əməkdaşlıq imkanlarını araşdırmaq niyyətini elan edib” - şirkət bildirib.

Agentlik xatırladır ki, Ermənistanla olan münaqişəyə görə Azərbaycana 20 ildən çoxdur Almaniya silah embarqosu tətbiq edib. “Reynmetall” isə bildirir ki, Azərbaycanla istənilən sövdələşmə silah təchizatına qoyulmuş embarqoya və ya ixrac nəzarətinə mane olmayacaq.

“Əməkdaşlıq barədə razılaşmada birbaşa deyilir ki, ancaq embarqo qaydalarının təsiri altına düşməyən xidmətlər və avadanlıqlar təchiz ediləcək” - şirkət bildirir.

“Reynmetall” korporasiyası müxtəlif tipli ağır və yüngül zirehli döyüş texnikası, iriçaplı artilleriya sistemləri, minaatanlar və müxtəlif digər silahlar istehsal edir. Əfsanəvi “Leopard” tankları da bu şirkət tərəfindən istehsal olunur.

## Xalq artistinin səhhəti pisləşdi

**Azərbaycanın xalq artisti, bəstəkar Xəyyam Mirzəzadənin səhhəti pisləşib.**

APA xəbər verir ki, o, Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib.

Xəyyam Mirzəzadə 1935-ci il oktyabrın 5-də Bakıda anadan olub. 1957-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib və orada işə başlayıb. 1969-1983-cü illərdə kompozisiya kafedrasının müdiri olub.

Onun əsərləri Avstriya, İngiltərə, Macarıstan, Hollandiya, Almaniya, İtaliya, Fransa və s. ölkələrdə ifa olunur. 30-dan artıq kinofilmə və 15 dram tamaşasına, estrada və caz pyeslərinə, populyar mahnılara musiqi bəstələyib.

Azərbaycan Lenin Komsomolu Mükafatı laureatı, Azərbaycanın əməkdar incəsənət xadimi, SSRİ Dövlət Mükafatı laureatı, “Şöhrət” ordeni laureatıdır. 52 il Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olandan sonra oradan çıxıb. Haqqında “Bir ömrün fəsilləri: Xəyyam Mirzəzadə-75" adlı sənədli film çəkilib.

## Metropolitenin bağlanmış banklarda 4 mln. manata yaxın pulu qalıb

**“Bakı Metropoliteni” QSC-nin lisenziyası ləğv edilmiş “Texnika Bank” ASC-də və “Bank Standard” ASC-də müvafiq olaraq 1,563 mln. manat və 2,146 mln. manat (ümumilikdə, 3,709 mln. manat) pulu qalıb.**

“Report” bu barədə nəqliyyat müəssisəsinin maliyyə hesabatına istinadən xəbər verir.

Hesabatda bildirilir ki, bağlanmış bankların öhdəliklərini məhkəmənin təyin etdiyi ləğvedici (indiki halda Azərbaycan Əmanətlərin Sığortalanması Fondu) qanunvericiliyə uyğun olaraq tənzimləyəcək.

## Şimali Kiprdə meyiti tapılan azərbaycanlının ölüm səbəbi bilindi

**Şimali Kipr Türk Respublikasında (ŞKTR) yaşayan azərbaycanlının meyiti tapılıb.**

Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin sədri, Girne Amerikan Universitetinin beynəlxalq əlaqələr departamentinin direktoru Orxan Həsənoğlu APA-ya bildirib ki, ŞKTR-in Girne şəhərində meyiti tapılan şəxsin Azərbaycan vətəndaşı Sabit Qazıyev olduğu müəyyənləşib.

O. Həsənoğlunun sözlərinə görə, 1960-cı il təvəllüdlü Sabit Qazıyev Girnədə həyat yoldaşı və anası ilə birlikdə yaşayıb: “İyunun 27-də axşam saatlarınadək evdə olub. Saat 23.00 radələrində gəzintiyə çıxıb, hovuzda üzüb. Sonra qəfildən ölüb. Onun meyiti gecə saatlarında tapılıb. Mərhumun meyiti Lefkoşa Dr. Burhan Nalbantoğlu xəstəxanasında tibbi ekspertizadan keçirilib və məlum olub ki, Sabit Qazıyev ürək çatışmazlığından vəfat edib”.



## Putinlə Trampın görüşünün vaxtı və yeri dəqiqləşdi

**Rusiya prezidenti Vladimir Putinlə ABŞ prezidenti Donald Trampın görüşəcəyi yer məlum olub. Belə ki, iki ölkə liderinin görüşü iyulun 16-da Finlandiyanın paytaxtı Helsinkidə baş tutacaq. Bu barədə Kremlin mətbuat xidmətindən bildiriblər.**

## AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə yeni həmməruzəçisi seçilib

**“Report”un Qərbi Avropa bürosunun məlumatına görə, bu vəzifəyə böyük britaniyalı deputat Rodjer Geyl seçilib.**

O, bu vəzifədə Sezar Florin Predanı əvəz edib.

Azərbaycan üzrə ikinci həmməruzəçinin seçimi assambleyanın yay sessiyası çərçivəsində baş tutub.

Xatırladaq ki, daha əvvəl AŞ PA-nın Azərbaycan üzrə həmməruzəçisi Ştefan Şennax həmməruzəçilərin sentyabr ayında ölkəyə səfər etməyi planlaşdırdıqlarını bildirib.

## İranda nüvə yanacağı zavodu işə düşdü

**İranda 9 ildən sonra nüvə yanacağı istehsal edən əsas zavod yenidən fəaliyyətə başlayıb. İran KİV-ləri yazır ki, zavod İslam Respublaksının ali rəhbəri ayətullah Seyid Əli Xameneinin tapşırığı ilə işə salınıb.**

Bununla da son 9 ildə ilk dəfə İranın İsfahan şəhərində UF6 (Uran-6-Flüorid) hasilatı, uranın zənginləşdirilməsi üçün sentrafuqlar işə düşüb.

Zavodun açılışına səbəb ABŞ-ın İranın nüvə proqramına dair Əhatəli Birgə Fəaliyyət Planı müqaviləsindən çıxması göstərilir.

## Azərbaycan və Ermənistan dövlət sərhədində monitorinq keçirilib

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 28-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində monitorinq keçirilib.**

MN-dən verilən məlumata görə, monitorinq insidentsiz başa çatıb.

## Hərbi hissələrdə rejim dəyişdi

**Havanın hərarətinin kəskin surətdə yüksəlməsini nəzərə alaraq, şəxsi heyətin, xüsusilə də gənc əsgərlərin sağlamlığının qorunması, rahatlığı və normal istirahət şəraitinin təmin olunması məqsədilə müdafiə nazirinin əmrinə əsasən xüsusi rejim tətbiq olunub.**

Bu barədə Müdafiə Nazirliyindən bildiriblər.

Görülən tədbirlər nəticəsində əsgər yataqxanaları, yeməkxanalar, digər inzibati binalar və poliqonlardakı sinif otaqlarında müasir kondisionerlər quraşdırılıb, hərbi hissələr sərinləşdirici avadanlıq və vasitələrlə təchiz edilib.

İstilik və günvurmanın profilaktikası, şəxsi heyətin su təchizatının nizamlanması üzrə kompleks tədbirlər görülür. Döyüş hazırlığı məşğələləri səhər saat 11.00-dək və saat 17.00-dan sonra keçirilir, hərbi qulluqçulara günorta vaxtı istirahət verilir.

Hərbi hissələrin ərazilərində, döyüş mövqelərində və təlim yerlərində şəxsi heyətin birbaşa günəş şüasından qorunması üçün kölgəliklər və duş yerləri hazırlanıb. Bütün hərbi qulluqçular daim qablaşdırılmış içməli su ilə təmin olunur.

## Gömrük Komitəsində yeni təyinat

**Dövlət Gömrük Komitəsində (DGK) yeni təyinat olub. “Trend” xəbər verir ki, Rəşad Babayev Tovuz Gömrük İdarəsinə rəis təyin edilib.**

Qeyd edək ki, o, bundan öncə Dövlət Gömrük Komitəsinin Malliyyə-tarif və valyuta nəzarəti baş idarəsinin rəis müavini vəzifəsində çalışıb.

Xatırladaq ki, ötən gün R.Babayevdən əvvəl Tovuz Gömrük İdarəsinin rəisi olan Kənan Məmmədov Bakı Baş Gömrük İdarəsinin rəisi təyin edilib.

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

**Artıq 3 aydır ABŞ-ın Azərbaycanda səfiri yoxdur. Vaşinqton hələ də Azərbaycana səfir təyin etməyib. Məsələnin hətta müzakirəsinin belə getdiyi haqda heç bir rəsmi açıqlama verilmir.**

# ABŞ-ın Azərbaycandakı səfir postu üç aydır boşdur

## "Görünür, Bakı ilə Vaşinqton arasında hələ razılaşdırılmayan ciddi məsələlər var"



ABŞ prezidentinin son iki ayda ard-arda 3 dəfə Azərbaycan prezidentinə məktub yazması, seçkilərdən sonra təbrik etməsi belə mənzərə yaradır ki, Azərbaycan iqtidarı ilə münasibətlər pis deyil. Belə olduğu halda hələ də Azərbaycana səfir göndərilməməsi suallar yaradır.

Müxalifət düşərgəsi yaranmış vəziyyəti Vaşinqton-Bakı münasibətlərinin göstərici sayırmı?

VİP sədri Əli Əliyev bu barədə "Yeni Müsavat"a şərhində bildirdi ki, ABŞ prezidentinin məktubları Amerika maraqlarına söykənir: "Məktubun mətnində dövlətlərarası münasibətlərin inkişaf etdirilməsi niyyəti bildirilirdi. O biri müraciətlərdə də təxminən eyni məqsəd göstərilirdi. ABŞ prezidenti dünən həm də köməkçisi vasitəsilə Putinlə təkbətək görüşü haqda da razılığa gəlib. Bu ziyarətlərin məqsədi İrandır. Tramp ilk gündən İsrailə açıq dəstək ifadə edir. Obamanın imzaladığı nüvə sazişindən də ABŞ-ın çıxması İsrailin istəyi ilə baş tutub. Qüdsün paytaxt elan olunması, ABŞ səfirliyinin ora köçürülməsi bu qəbildən olan hadisələrdəndir.

İndi də proses davam etməkdədir. İranın sanksiyalara məruz qoyulacağı yüksək tribunalardan səsləndirilir. İran neft sektorunun blokadaya alınma təhlükəsi hasilatın azalmasına, valyutanın bahalaşmasına gətirib. İran rialı rəsmən 4500 civarında olsa da, qara bazarda dəyəri 8700-ü ötüb. Narazılığın səviyyəsi gündən-günə yüksəlir. Bunların hamısı xarici təhdidin fonunda baş verir. Azərbaycan və Rusiya İranın yaxın qonşularıdır. Bizə yazılan məktubların pərdəarxası məqsədi İranın təklənməsində iştirakımızın istənilməsidir. Düzü, belə təhlükəli oyunlarda iştirak heç gücümüzə mütənasib deyil. İstəməzdim ki, belə nəhəng tərəflərin hədəfinə gələk. Görünür, Azərbaycanla ABŞ arasında hələ razılaşdırılmayan ciddi məsələlər var. Məhz bu məsələlərə görə səfir təyinatı yubanır".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, ABŞ hökuməti ilə Azərbaycan iqtidarı arasında hələ lap əvvəldən gözəl münasibətlər olub:** "Bu münasibətlər Azərbaycandakı insan haqları və demokratiyanın vəziyyətinin nə qədər ağır olmasından asılı olmayaraq bütün dönəmlərdə yaxşı olub. Müxalifətin Qərb və Amerikaya ümidlərinin olmasına baxmayaraq bu ölkələr hər zaman beynəlxalq dəyərlərdən öndə öz maraqlarını tutublar. Biz AĞ Partiya olaraq bunu bəyan edəndə elə öz müxalifətimiz tərəfindən müxtəlif tənqidlərə məruz qalırıq. Əslində istər Amerika, istərsə də Avropa üçün özlərinin siyasi, iqtisadi maraqları Azərbaycandakı demokratiya maraqlarından çox öndədir. Odur ki, biz seçkidən öncə də qeyd edirdik ki, İlham Əliyevin prezident kimi beynəlxalq arenada legitimlik problemi olmayacaq. İndiki məqamda ABŞ-ın Azərbaycana hələ də səfir göndərməməsini isə qətiyyən təzyiq vasitəsi kimi qiymətləndirmirəm. Bu, çox böyük ehtimal ki, Amerika bürokratiyasının prosedur qaydalarına görədir. Yanılmıramsa Amerikada səfirin təyinatı məsələsi texniki baxımdan uzun bir prosedurdur. İstənilən halda mən bunu Amerika-Azərbaycan münasibətlərinin indiki vəziyyətinin göstəricisi kimi dəyərləndirmirəm. Zatən Azərbaycan iqtidarında da belə bir təlaşın olduğu hiss olunmur. Ümumiyyətlə, biz müxalifət partiyası olaraq siyasi mübarizəmizdə iqtidarın digər xarici dövlətlərlə münasibətini faktor kimi nəzərə almırıq. Bizim üçün əsas göstərici xalqımızın hakimiyyətə olan münasibətidir".

**AMİP katibi Əli Orucov qeyd etdi ki, ABŞ-ın hansısa ölkəyə səfir göndərməsi müəyyən prosedurlardan sonra həyata keçirilir. Bunun üçün qanunverici orqanın da təsdiqi gərəkir. Ona görə də namizədlər seçiləndə hərtərəfli araşdırılır və göndəriləcək dövlətə hansı formada, necə işləyəcəyi öyrənilir. Bu baxımdan də səfirin gec təyinatı Azərbaycan-ABŞ əlaqələrində müəyyənedici faktor oynamır:** "Bundan əvvəlki səfirin də təyinatı bir qədər gecikmişdi. Azərbaycan ABŞ-ın önəm verdiyi ölkələrdən biridir. Doğrudur, insan haqlarının və demokratik dəyərlərin qorunması baxımından ziddiyyətlər yaranır, zaman-zaman problemlər çıxır. Prezident Trampın Azərbaycan dövlət rəhbərinə göndərdiyi məktublar heç də o anlam vermir ki, iqtidarla çox yaxşı münasibətlər var. Seçkilərdən sonra göndərilən məktubda daha çox ABŞ-ın Azərbaycandan gözləntiləri öz əksini tapıb. Bu məktubların mahiyyətində Vaşinqtonun bölgədə maraqları durur. Tramp gözlənilməz gedişləri ilə planetimizdə nigarançılıq və narahatlıq yaratmaqda davam edir. Bu baxımdan da iqtidarla münasibətlərin istiliyindən-soyuqluğundan əminliklə danışmaq mümkün deyil".

**ADP sədrinin müavini Taliyət Əliyev isə bildirdi ki, ABŞ-Azərbaycan münasibətlərinin mövcud durumunu qiymətləndirərkən bu münasibətlərin nə pis, nə də çox yaxşı olduğunu iddia etmək doğru olmazdı:** "Düşünürəm ki, münasibətlərdə ən azı status-kvonun saxlanılmasında hər iki tərəf maraqlıdır. Qaldı ki, yeni səfirin təyin olunmaması məsələsinə, yəqin xatırlayırsınız, bundan əvvəllər də elə olub ki, 2 ilə yaxın müddətdə ABŞ Azərbaycana səfir təyin etməyib. Düzdür, səfirlərin gec və ya tez təyin olunması iki dövlət arasındakı qarşılıqlı münasibətlərdən qaynaqlana bilər. Amma ABŞ-ın Azərbaycandakı sonuncu səfiri Robert Sekutanın səlahiyyət müddəti cari ilin aprel ayında başa çatıb və o, ölkəsinə qayıdıb. Üstündən hələ 3 ay vaxt keçib. Bu baxımdan səfirin təyin olunmamasını iki dövlət arasındakı münasibətlərin pis olması ilə izah etmək hələ tezdir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# MTN generalları "qırmızı zon"da

## Onlar 9 saylı cəzaçəkmə müəssisəsinin xüsusi korpusunda saxlanılır

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov Binə qəsəbəsindəki 9 saylı cəzaçəkmə müəssisəsində, xüsusi korpusda saxlanılırlar. Onlar bu müəssisəyə iyunun əvvəlində köçürülüblər.**



Bakı Hərbi Məhkəməsinin hökmü ilə Akif Çovdarov 12 il, Səlim Məmmədov 11 il, Akif Əliyev 5 il, Orxan Osmanov 4 il azadlıqdan məhrum ediliblər. Məhkəmə Akif Çovdarov və digərlərinin rütbəsinin alınması barədə xüsusi qərardad çıxarıb. Həmçinin Akif Çovdarov və digərlərinə məxsus, üzərinə həbs qoyulmuş əmlakların müsadirə olunması barədə qərar qəbul edilib.

2015-ci il oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində (MTN) baş tutan əməliyyat Eldar Mahmudovun nazir kreslosunu itirməsi, mərkəz, idarə və şöbələrinin bir sıra əməkdaşlarının istintaqa cəlb edilərək həbs olunmaları ilə nəticələndi. 4-ü general olmaqla, ümumilikdə 19 MTN-çi həbs edildi. Elə həmin günlərdə xəbər yayılmışdı ki, Eldar Mahmudovun generalları və digər işçiləri üçün zonun içində ayrıca korpus tikilir. Gələn son məlumatlara görə, korpus 1 ilin içində tikilərək təhvil verilib. Həmin korpusa köçürülən və köçürüləcək "MTN işi" üzrə həbsdə olan MTN-çilərin siyahısını bir daha təqdim edirik:

**1.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov;
**2.** MTN-in Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev;
**3.** MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev;
**4.** MTN-in Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov;
Monitorinq Mərkəzinin əməkdaşları:
**5.** Fərhad Atayev,
**6.** Anar Şirəliyev,
**7.** Eşqin Əliyev,
**8.** Elşad Əzizov;
**9.** Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi, polkovnik Fizuli Əliyev;
**10.** İstintaq Baş İdarəsinin rəis müavini, şöbə rəisi, polkovnik-leytenant Vüsal Ələkbərov;
**11.** MTN-in Baş Əks Kəşfiyyat İdarəsinin şöbə rəisi polkovnik Mirəziz Əsgərov;
**12.** MTN polkovniki Mehman Abdullayev;
**13.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Akif Əliyev;
**14.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin baş əməliyyat müvəkkili Anar Hüseynov;
**15.** MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsindəki idarələrdən birinin rəisi Səlim Məmmədov;
**16.** Həmin idarənin işçisi Orxan Osmanov;
**17.** Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi Natiq Alıyev;
**18.** Əməliyyat-texniki idarənin şöbə rəisi Zaur Məmmədov;
**19.** MTN-in şöbələrindən birinin sabiq rəis müavini Azər Mehdiyev.

Qeyd edək ki, "MTN işi" üzrə həbs olunanlar 2015-ci ildə Bakı İstintaq Təcridxanasına (BİT) köçürüləndən sonra da digər dustaqlardan təcrid edilmiş şəkildə saxlanılırdılar. Onlara münasibət də digər dustaqlardan bir qədər fərqli idi - pulla hüquqlarını gerçəkləşdirmək imkanları minimuma endirilmişdi. Bu münasibətin MTN-çilərin şəxsi əlaqələrindən istifadə edərək istintaqa, zərərçəkənlərə təzyiq etmək imkanlarının qarşısını almağa yönəldiyi bildirilirdi. Həmin günlərdə bildirildi ki, MTN-çiləri barələrindəki ittihamedici hökmdən sonra da eyni rejimdə saxlayacaqlar. Bunun üçün 9 saylı cəzaçəkmə müəssisəsində həbsdəki MTN-çilər üçün xüsusi korpus tikilmişdi. Kriminal aləmdə "qırmızı zon" adlanan həmin cəzaçəkmə müəssisəsində xüsusi nəzarət altında, digər məhkumlardan təcrid olunmuş vəziyyətdə saxlayacaqlar. Bunun özəl səbəbləri var. Əsas səbəb budur ki, "dəmir barmaqlıq" arxasına salınan MTN-çilərin xidmətlə əlaqəli əldə etdikləri informasiyalar azı 50 il aktuallığını saxlayır. Həmin informasiyaları onlardan digər məhkumların ala bilməsi ehtimalı var.

"MTN işi" ilə bağlı 130 epizod araşdırılıb və məhkəmədə müvafiq qiymət verilib. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınmışdı. Bu gün zərərçəkənlərin əksəriyyəti MTN-çilər barəsində çıxarılan hökmlə razı deyillər.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

**İyunun 28-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və İlahiyyat İnstitutunun təşəbbüsü ilə "Dini təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda konfrans keçirildi. Tədbirdə DQİDK sədri Mübariz Qurbanlı, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Müzəffər Talıblı, Prezident yanında Bilik Fondunun, QMİ-nin təmsilçisi, o cümlədən yerli alban-udin, yəhudi icmalarının rəhbərləri, ilahiyyatçılar, media təmsilçiləri iştirak edirdi.**

# "Dini təhsil: mövcud vəziyyət və hədəflər" mövzusunda konfrans keçirildi

## "İlahiyyat İnstitutunun yaradılması gənclərimizin hər hansı ölkəyə dini təhsil almağa getməsinin qarşısını alacaq"






DQİDK sədri Mübariz Qurbanlı Azərbaycanda dini təhsil ənənəsinin, təcrübənin olması haqda ətraflı məlumat verdi. Azərbaycan Rusiyanın işğalı altına düşdükdən sonra ölkədə dini təhsilin səviyyəsi aşağı düşüb, sovet dövründə isə dini təhsil tamamilə qadağan olunub, azsaylı mütəxəssislər Orta Asiyada təhsil alıblar.

M.Qurbanlı bildirdi ki, yeni yaradılan İlahiyyat İnstitutu yerli kadrların hazırlanmasında ciddi rol oynayacaq, daha əvvəl mövcud olan dini təhsil üçün xaricə gedənlər artıq ölkə daxilində təhsil alacaqlar və bununla da bundan sonra xaricdə təhsil alan kadrlar işləyə bilməyəcək. Amma bu qaydа bundan əvvəl xaricdə təhsil alan ilahiyyatçılara aid olmayacaq. **Sitat:** "Buna görə də cənab prezident İlham Əliyevin sərəncamı ilə İlahiyyat İnstitutu yaradılıb. Azərbaycanda pulsuz dini təhsilin olmaması gənclərimizin xarici ölkələrə getməsinə rəvac verirdi. Digər tərəfdən, qanunvericiliyə əsasən, Azərbaycanda məscidlərdə çalışanlar ölkədə dini təhsil alan şəxslər olmalıdır. İlahiyyat İnstitutunun yaradılması gənclərimizin hər hansı ölkəyə dini təhsil almağa getməsinin qarşısını alacaq".

İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov İslam təhsili ilə bağlı geniş təqdimat etdi. İslam tarixində təhsilin islamiyyətin ilk illərindən başladığını xatırladan rektor Azərbaycanda da dini təhsil təcrübəsinin qədim dövrlərə dayandığını qeyd etdi. C.Məmmədov buna qədər Azərbaycanda Bakı İslam Universitetinin, həmçinin Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin ilahiyyatçı kadrlar hazırladığını bildirdi. Rektor qeyd etdi ki, 1992-ci ildən bu günə qədər 819 tələbə BDU-nun ilahiyyat fakültəsini bitirib. 3 mindən çox insan isə Bakı İslam Universitetini bitirib. Lakin eyni zamanda çoxlu sayda azərbaycanlı xarici ölkələrdə dini təhsil alıb.



Yeni yaradılan İlahiyyat İnstitutuna isə yerli kadrların hazırlanması üçün daha geniş imkanlar yaradıldığını qeyd edən rektor bildirdi ki, hazırda yeni tədris standartlarının hazırlanması ilə bağlı Təhsil Nazirliyi ilə danışıqlar aparılır və yaxın gələcəkdə yekun qərar qəbul ediləcək. Yeni tədris ilindən İlahiyyat İnstitutuna 60 nəfər qəbul olunacaq.

Ceyhun Məmmədov bildirdi ki, qarşıya qoyulan əsas məsələ odur ki, tələbələrə ilahiyyat elmləri ilə yanaşı, dünyəvi elmlər, tarix, Azərbaycan dili dərsləri tədris olunacaq. Bundan başqa, İlahiyyat İnstitutunda digər dinlər - xristianlıq, yəhudilik və başqa dinlər araşdırılacaq.

Bundan başqa, müxtəlif dini istiqamətlər üzrə seminarlar, konfranslar təşkil olunacaq, bu ayın 22-də keçirilən ilahiyyatçı alimlərlə görüşlərin silsilə şəklində davam etdirilməsi nəzərdə tutulub. Bundan başqa, C.Məmmədov BDU-nun ilahiyyat fakültəsində tədris olunan dərsliklərin Azərbaycan dilinə çevrilməsi, eyni zamanda yeni dərs vəsaitlərinin və kitabların çap edilməsinin nəzərdə tutulduğunu bildirdi: **"Çünki hazırda bu sahədə olan dərsliklər türk dilindədir. Eyni zamanda ilahiyyatla bağlı dərs vəsaitinin hazırlanması əsas məqsədlərdən biridir".**

Bundan başqa, İlahiyyat İnstitutunda müəllimlərin daha səmərəli çalışması üçün bir sıra planlar həyata keçiriləcək, o cümlədən institutda çalışacaq hər bir müəllimin fəaliyyəti dəst ilinin sonunda qiymətləndiriləcək: **"Nəticələr qənaətbəxş olmasa o, başqa müəllimlə əvəz ediləcək. Senzuranı güclü qurmaq lazımdır ki, nəticə də uğurlu olsun".**

Daha sonra çıxış edən Bakı Şəhəri Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev Azərbaycanda bütün dinlərin sərbəst şəkildə yaşadığını və dəyərlərini inkişaf etdirdiyini qeyd etdi. Yevdayev azərbaycanlı yəhudilərin öz dəyərlərini qoruyub saxladığını və tədris etdiyini qeyd etdi. Onun sözlərinə görə, Qubada İşiva adlı kollec bu günə qədər yüzlərlə ravvin hazırlayıb. Artıq 10 yaşında uşaqlar belə Tövratı oxuya bilir. Hazırda Azərbaycanda 9 sinaqoqun fəaliyyət göstərir, biri də tikilir. İki orta məktəb, 3 bağça fəaliyyət göstərir.

Alban Udin icmasının sədri Robert Mobili Alban idin kilsəsi üçün İlahiyyat İnstitutunda kvota ayrılmasını təklif etdi. Onun sözlərinə görə, bu, olarsa, Azərbaycanda Alban idin kilsəsi bərpa edilə bilər.

Çıxış edən ilahiyyatçılar Vüsal Məmmədov və fəlsəfə müəllimi Mail Yaqub yeni yaradılan institutla bağlı təkliflərini səsləndirdi. Fəlsəfə müəllimi Mail Yaqub həm də ilahiyyat təhsili olduğunu və Azərbaycandan insanların təkcə ilahiyyat təhsili pullu olduğu üçün deyil, həm də xarici ölkələrdə dini mərkəzlərdə dinlə bağlı səmimiyyət olduğu üçün getdiyini xatırlatdı. Din sahəsinin həddən artıq həssas olduğunu xatırladan ekspert yerli savadlı kadrların hazırlanmasının vacib olduğunu xatırlatdı. Qeyd edək ki, tədbirdə çıxış edən hökumət təmsilçiləri İlahiyyat İnstitutunun səmərəli işləməsi üçün dövlət orqanlarının lazım olan dəstəyi verəcəyini vurğuladılar.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Dövlət yumurta ixracatçılarına pul verəcək

## **Mürvət Həsənli:** "Rusiya və Ukraynaya yumurta ixrac edə bilmirik"

**Azərbaycanda ixracı dövlət tərəfindən stimullaşdırılan məhsulların sayı artırılıb. Bu artım Nazirlər Kabinetinin "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nda etdiyi dəyişiklikdə əksini tapıb.**



Belə ki, quş yumurtası, qabığı təmizlənmiş meşə fındığı, zeytun yağı və onun fraksiyaları, üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı bu siyahıya daxil edilib.

Bu məhsulların ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq əmsallar da müəyyənləşib. Bu əmsallar quş yumurtası üçün 1,5, qabığı təmizlənmiş meşə fındığı üçün 1, zeytun yağı və onun fraksiyaları üçün 1,5, üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı üçün 2 olaraq müəyyən edilib(APA).

Qeyd edək ki, ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 faizini təşkil edir. İxrac olunan qeyri-neft məhsullarının Azərbaycan ərazisində istehsal olunan və istehsal prosesində istifadə edilən yerli komponentlərin və Azərbaycan ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisi mənşə sertifikatı əsasında müəyyən olunur və ixrac təşviqi Azərbaycan Respublikası mənşəli mallara şamil olunur. İxrac təşviqinin məbləği ixrac təşviqinin baza məbləğinə ixrac olunan qeyri-neft məhsullarının növündən asılı olaraq, Nazirlər Kabineti tərəfindən müəyyən edilən əmsallar tətbiq olunmaqla hesablanır və ödənilir. Faktiki ixrac dedikdə, qeyri-neft məhsullarının geri qaytarılmaq öhdəliyi olmadan Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılması başa düşülür.

İqtisadiyyat Nazirliyi mətbuat xidmətindən "Yeni Müsavat"a verilən məlumata görə, indiyədək ixracatçı sahibkarlara 922 məktub-sərəncam əsasında 5 milyon 240 min manatdan yuxarı ixrac təşviqi ödənib.

**İş adamı, "Xəmsə" MMC-nin sahibi Mürvət Həsənli bildirir ki, quş yumurtasına ixrac təşviqinin ödənməsi bu sahədə müsbət dinamikanı daha da gücləndirəcək:** "Bu sahə ilə məşğul olan sahibkar kimi, bu qərarı alqışlayıram. Azərbaycanda ötən ildən etibarən süfrə yumurtasının ixracına başlanıb. Əsasən İran və İraqa ixrac olunur, az bir qisim isə Qətərə. Bu ilin sonunadək damazlıq yumurtanın da ixracına başlanacaq. Haradasa 30 milyon ədəd damazlıq yumurta ixracı potensialı var. Rusiya, Qazaxıstan, Özbəkistan və İrandan damazlıq yumurta almaq üçün müraciətlər var. Azərbaycanın bu yumurtaya illik tələbatı 120-140 milyon ədəddir. Amma bu il istehsalın 180 milyon ədəd civarında olacağı gözlənilir. Süfrə yumurtasının 1 ədədi 5 sentə satılırsa, damazlıq yumurtada bu qiymət 30 sent təşkil edir".

**İş adamının dediyinə görə, yumurta ixracında İran, İraq və Körfəz ölkələrinə istiqamətlənmənin əsas səbəbi Rusiya, Ukrayna kimi ölkələrdə yumurtanın maya dəyərinin çox ucuz olmasıdır:** "Bu ölkələrdə bir yumurtanın maya dəyəri 3-4 qəpik, bizdə isə 7 qəpikdir. Bu da ondan irəli gəlir ki, həmin ölkələrdə yem və yem əlavələri ucuzdur. İranın yumurtaya tələbatının artması isə bir müddət əvvəl bu ölkədə yayılan xəstəlik üzündən ana sürülərinin böyük bir hissəsinin tələf olması ilə bağlıdır. Türkiyəyə ixracımız mümkün deyil, ona görə ki, onlar bazarı qorumaq üçün yumurtaya böyük gömrük rüsumu tətbiq edirlər".

Onu da qeyd edək ki, yerli yumurta istehsalçılarını stimullaşdırmaq məqsədilə 2016-cı ilin oktyabrından Azərbaycana yumurta idxalına əlavə rüsum tətbiq olunub. Hər 1000 ədəd toyuq yumurtası üçün 100 dollar təşkil edən bu rüsum sayəsində kənardan idxal minimum səviyyəyə enib, ixraca başlanıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycandan 9 milyon 194.4 min ədəd quş yumurtası ixrac olunub. Bu alverdən 479.66 min dollar gəlir əldə edilib. Bu ilin birinci rübündə isə 31 milyon 918.32 min ədəd yumurta 1 milyon 853.4 min dollara satılıb. Bunun 28 milyon 794.96 ədədi İrana 1 milyon 664.01 min dollara, 969.12 min ədədi Qətərə 65.95 min dollara satılıb.

Nazirlər Kabinetinin etdiyi dəyişiklikdə ixrac təşviqi veriləcək qabığı təmizlənmiş meşə fındığının ixracı son illərdə xeyli artıb. Belə ki, ötən il Azərbaycandan xaricə 20 min766.42 ton qabığı təmizlənmiş meşə fındığı ixrac olunub, 114 milyon 532.38 min dollar əldə edilib. Bu ilin birinci rübündə isə eyni məhsulun ixracı 4 min 487.83 ton təşkil edib, 23 milyon 715.94 min dollar gəlir əldə olunub.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

# Səməd Seyidovun ittihamlarına QHT rəhbərlərindən reaksiya





## Novella Cəfəroğlu: "Azərbaycan əleyhinə fəaliyyət göstərən QHT-lərin olduğunu düşünmürəm"

## Əliməmməd Nuriyev: "Onun fikirlərində həqiqətlər var"

**AŞ PA-nın yay sessiyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun qeyri-hökumət təşkilatları barədə səsləndirdiyi bəzi fikirlər geniş müzakirələrə səbəb olub. Deputat bildirib ki, bəzi qeyri-hökumət təşkilatları müəyyən şəxslərin əlində oyuncağa çevrilib. Sitat: "Biz fərqindəyik ki, hətta QHT-lər bəzən o qədər aktivdirlər ki, insanlar onlara hökumətin özündən çox inanır.**

Bəzi QHT-lər, xüsusilə də xaricdən maliyyələşənlər, hökuməti və ölkədəki mentaliteti dəyişmək istəyirlər. Onlar bəzi şəxslərin əlində oyuncağa çevrilib. Bunu Macarıstanda, Azərbaycanda görmək olar. Unutmamalıdırlar ki, xalq onlara inanır və onlar insanlar qarşısında məsuliyyət daşıyırlar. Bu problem Avropanın özündə də var. Böyük Britaniyada, Almaniyada da bunu görmək mümkündür".

**Dilarə Əliyeva adına qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu Azərbaycanda xaricdən maliyyələşən QHT-lərin qalmadığını söylədi:** "Xaricdən gələn qrantların qarşısı alınandan sonra QHT-lər maliyyələşə bilmirlər. Faktiki mövcud vəziyyət belədir. Hər kəsə məlumdur ki, son illərdə bizlər xidməti müqavilə ilə hissə-hissə qrantlar alırıq. Hesab edirəm ki, QHT-ləri bu günə qoymaq düzgün deyil. Çünki QHT-lər Azərbaycanın bütün bölgələrində işləyirdilər. Hökumətin qanunlarının hər birini xalqa çatdırırdılar. Bunun müqabilində QHT-ləri bu vəziyyətə salmaq doğru deyildi. QHT nə Amerikanın, nə də digər dairələrin təsiri altına düşməmelidir. Bəzən olur ki, hökumətin qərarlarından ucqar yerlərdə yaşayanların xəbəri olmur. Onu biz həmin yerlərə çatdırırıq. Hazırda mövcud olub, Azərbaycan əleyhinə fəaliyyət göstərən QHT-lərin olduğunu düşünmürəm. Çox güman ki, Səməd Seyidov Azərbaycandan gedib xaricdə fəaliyyət göstərən QHT-ləri nəzərdə tutub. Ölkə daxilində QHT-ləri çox sıxanda, onların düz danışmaqlarının qarşısı alınanda bu sahə inkişaf etməyəcək və nəticədə də xaricdəki qeyri-hökumət təşkilatları önə keçəcək. Nələrisə dəyişmək lazımdır. Əks halda, bu şəkildə davam edə bilməz. İstənilən halda xaricdən Azərbaycan əleyhinə fəaliyyət göstərməyin heç bir adı yoxdur. Ölkəmizdə tənqid səsləndirən, nəyin düzgün olub-olmadığını dilə gətirən QHT-lər az deyil. Bunun da olması normaldır. Amma xaricdən maliyyələşən QHT yoxdur".

**"Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev bunları dedi:** "Səməd Seyidovun nə dediyini ən yaxşı onun özü bilir. Amma onun fikirlərində həqiqətlər var ki, xaricdən qeyri-leqal yollarla maliyyələşən qurumlar var. Onlar daha çox Azərbaycanda siyasi fəaliyyətlə məşğul olmağa üstünlük verirlər. Əslində siyasi fəaliyyətlə siyasi partiyalar məşğul olmalıdır. Siyasi partiyalar və vətəndaş cəmiyyətinin fərqli missiyaları var. Bəzi QHT-lər və onların nümayəndələri Azərbaycanda var ki, məqsədləri hökuməti tənqid etmək deyil, hakimiyyəti dəyişməkdir. Hətta bəzi hallarda ölkəyə elə bir dəyərlər gətirmək istəyirlər ki, həmin dəyərlərin Azərbaycanda kökü ola bilməz. Bu dəyərlər bütövlükdə Azərbaycan xalqının baxışlarına ziddir. Amma xaricdən müəyyən qrantlar alan QHT-lərin hamısını ittiham etmək olmaz. Çünki elə qurumlar var ki, səmərəli şəkildə fəaliyyət göstərir, islahatlara dəstək xarakterli layihələr həyata keçirir, müsbət xarakterli proqramlar hazırlayırlar. Elə də QHT-lər var ki, ölkə kənarında olan mərkəzlərin sifarişlərini həyata keçirir, ölkədə daxili gərginliyin baş verməsinə cəhdlər edirlər. Eyni zamanda çoxsaylı hüquq müdafiəçiləri ölkəmizdə var ki, insanların hüquqlarının qorunması istiqamətində müsbət işlər görürlər. Lakin elə də hüquq müdafiəçiləri var ki, insan hüquq və azadlıqları adı altında gizlənərək, yalançı siyahılar hazırlayıb, bu yolla qrantlar əldə etməyə çalışırlar. Konkret sifarişlər icra edənlər də var. Milli maraqlara zidd fəaliyyət göstərirlər. Amma QHT-lərin tam əksəriyyəti hazırda dövlət və millət maraqlarından çıxış edir, bu şəkildə fəaliyyət aparır, bütün sahələrdə islahatların dərinləşməsinə öz töhfələrini verirlər. Hazırda QHT-lər və hökumət arasında çox səmərəli əməkdaşlıq mövcuddur. Ona görə QHT-ləri bölmək lazımdır, Azərbaycan dəyərlərinə zidd fəaliyyət göstərənlər və dövlət dəyərlərini öndə tutanlar. Təəssüflər olsun ki, Azərbaycan torpaqlarını işğal edən ermənilərin QHT-ləri ilə də əməkdaşlıq edən təşkilatlar var, onların maliyyə vəsaitlərindən istifadə etmək üçün bu yola belə gedirlər. Dünyanın hər yerində bu cür hallar olub, gələcəkdə də olacaq. Vətəndaş cəmiyyətində müəyyən çətinliklər var ki, bu da müzakirə edilir və artıq bu istiqamətdə müəyyən irəliləyişlər var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Alpinistlərin ölüm səbəbi ilə bağlı yekun rəy açıqlandı

### "Qar uçqununun altında qalaraq soyuqdan ölüblər"

**Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Qubada meyitləri tapılan alpinistlərin ölümünün səbəbinin müəyyən edilməsi üçün apardığı ekspertiza başa çatıb.**

Səhiyyə Nazirliyindən "Trend"ə bildirilib ki, müayinələr başa çatdıqdan sonra onun əsasında tərtib edilmiş rəy artıq Quba Rayon Prokurorluğuna təqdim edilib. Bu rəyə əsasən, ekspertiza zamanı meyitlərin üzərində xəsarət izi aşkar edilməyib. Alpinistlərin ölümünə isə onların bədənində ümumi hərarətin enməsi və soyuması səbəb olub: "Onlar qar uçqununun altında qalaraq soyuqdan ölüblər. Qar kütləsi enərkən onlar aşağıda olduqları üçün xəsarət almayıblar. Başqa sözlə, uçqun bunları hündürdən yerə çırpmayıb, digər tərəfdən də çadırın içərisində olublar. Ona görə də xəsarət almayıblar".

Qeyd edək ki, ötən il dekabrın 23-də "Gilavar" hava və ekstrim idman klubunun 3 üzvü - Fəridə Cəbrayılzadə, Babur Hüseynov və Namin Bünyatzadə Quba rayonundan Tufandağ istiqamətində hərəkət edərkən onlarla əlaqə kəsilib.

Fövqəladə Hallar Nazirliyinin peşəkar xilasedicilərindən ibarət dəstələrin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarının iştirakı ilə aparılan axtarışlar nəticəsində mayın 16-da axşam saatlarında axtarışların aparıldığı ərazidə alpinistlərə aid çadırın yeri müəyyən edilib, 3 meyit (2 kişi və 1 qadın) və alpinistlərə aid digər əşyalar aşkar edilib.

# Fazil Məmmədov "American Hastanesi"nə yerləşdirilib

## Sabiq nazirin həkimi: "Normal, sağlıqlıdır..."

**2 ay əvvəl Gəncədəki xəstəxanaya yerləşdirilən sabiq vergilər naziri Fazil Məmmədov ölkədən müalicə adı ilə çıxıb. Onun Türkiyəyə, oradan isə ABŞ-a aparılması xəbəri yayılıb. Vəzifədən çıxarılandan sonra Fazil Məmmədovun səhhətində ağırlaşmalar baş vermişdi və onu bu ilin aprelində Gəncə Beynəlxalq Xəstəxanasına yerləşdirmişdilər. Fazil Məmmədovun həmin xəstəxanada bir neçə xəstəlikdən müalicə olunduğu bildirilirdi. Qeyd olunurdu ki, Fazil Məmmədov nazir olduğu dönəmdə hər ay həkim nəzarətində olub. Yayılan son məlumatlar da əvvəl yazıqlarımızı təsdiqləyir.**



"Fazil bəy hər ay müayinə üçün mənim yanıma gəlib, amma kəskin bir narahatlığı yox idi. Normal, sağlıqlı bir insandır. Müayinələrdə nə ürək problemi, nə də qaraciyər problemi müəyyən olunmuşdu". Bu sözləri modern.az-a uzun müddət F.Məmmədovu müalicə edən Türkiyədəki Ankara hospitalının həkimi Süleyman Dinçer söyləyib.

Sabiq vergilər naziri Fazil Məmmədov səhhətində yaranmış problemlərlə bağlı Türkiyə Respublikasında "American Hastanesi"nə yerləşdirilib.

F.Məmmədovun qohumlarının "APA-Economics"ə verdiyi məlumata görə, bir müddət Gəncə Beynəlxalq Hospitalında tibb elmləri üzrə fəlsəfə doktoru İlyas Həsənovun nəzarəti altında müalicə alan Fazil Məmmədovun sonrakı müalicəsinin Türkiyədə davam etdirilməsi qərara alınıb.

Hazırda sabiq nazir "American Hastahanesi"nin professorları Orhan Bilge və Mustafa Keremin nəzarəti altındadır.

Qeyd edək ki, F.Məmmədov qaraciyərində yaranmış narahatlıqla bağlı Gəncədəki xəstəxanaya yerləşdirilmişdi. Həmin xəstəxananın Fazil Məmmədova məxsus olması haqda bu günə qədər təkzib edilməyən məlumatlar var. Bildirilirdi ki, onun müalicəni Türkiyədən və İsraildən çağırılan həkimlər həyata keçirirlər. Fazil Məmmədov hələ nazir olduğu dövrdən həmin həkimlərin nəzarətində imiş. Ölkədən çıxışı yasaq olunduğundan Fazil Məmmədov həmin həkimlərin qəbuluna gedə bilmir deyə, həkimlər xüsusi təyyarə reysləri ilə Gəncəyə gəlib onu müalicə edirlər. Fazil Məmmədov Azərbaycanda olduğu dövrdə belə iddialar da vardı ki, sağlıq durumunun ağırlaşması və xəstəxanaya yerləşdirilməsi onun ölkədən çıxmaq istəyi ilə əlaqədar olub. Bildirilirdi ki, Fazil Məmmədov xəstəliyini qabartmaqla ölkədən çıxışına olan qadağanı aradan qaldırmağa can atıb.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

**"GünayBank"ın İdarə Heyətinin sədr müavini Emin Zeynalov tərəfindən 100 milyon manata yaxın vəsaitin ələ keçirilməsi ətrafında ajiotaj səngimir. Virtualaz.org-a bank sahəsində məlumatlı mənbənin verdiyi informasiyaya görə, Emin Zeynalov tək olmayıb - bu iri fırıldaqda ona atası Zakir Zeynalov da fəal şəkildə kömək edib. Mənbə iddia edir ki, Zakir Zeynalov 15 sutka ərzində oğlunu istintaqdan gizlədib və onu hüquq-mühafizə orqanlarına yalnız bu oğurluq hadisəsinin haqqin.az və virtualaz.org-da ictimailəşdirilməsindən sonra doğurduğu geniş rezonansdan sonra təhvil verib.**

# "GünayBank"da 100 milyonluq mənimsəmənin yeni təfərrüatları

## Əkrəm Həsənov: "Bankın Müşahidə Şurası sədrinin xəbəri olmadan belə bir halın baş verməsi mümkünsüzdür"

"Bir müddət öncə ölkənin ən iri banklarından birində məsul vəzifəsini itirdikdən sonra Zakir Zeynalov əvvəlki mövqeyini geri qaytarmaq üçün heç nədən çəkinməyib. O, hətta müxtəlif müəlliflərə məxsus kitabları Azərbaycan dilinə tərcümə edərək, öz əsərləri kimi qələmə verib. Eyni zamanda o, hamını özünün maliyyə vəziyyətinin yaxşı olmasına inandırmağa çalışıb, halbuki əslində indiyə kimi "GünayBank"da dələduz piramidaya başçılıq edir", - mənbə qeyd edir. Onun sözlərinə görə, Zakir Zeynalov "GünayBank" rəhbərliyi ilə işbirliyinə gedərək, aldadılmış əmanətçilərin vəsaitlərinin mənimsənilməsi üzrə planını həyata keçirir. "Zakir Zeynalov bildirir ki, banka olan bütün borclarını qaytarıb. Bununla birlikdə, oğlunun oğurluq pullara aldığı bütün daşınmaz əmlakı bankın aktivlərinə əlavə edir və aldadılmış əmanətçilərə deyir ki. pulların bankdan tələb etsinlər. Zakir Zeynalov gözəl başa düşür ki, heç kim onun oğlunun oğurladığı pulları bankın adını qeydiyyata keçirilmiş daşınmaz əmlakla qaytara bilməyəcək". Başqa sözlə, uzun illər ölkənin ən iri banklarından birinə rəhbərlik etmiş və ən müxtəlif maliyyə fırıldaqlarında "püxtələşmiş" Zeynalov çoxmilyonluq varidatını heç kimlə bölüşdürmək istəmir. Bütün aktivlərini bankın adına keçirməklə, Zakir Zeynalov natəmiz oyun aparır və bu oyunda qaydaları özü müəyyənləşdirir. Oğlu Emin isə vur-tut atasının planının icraçısıdır", mənbə bildirir. Güman etmək gülünc olardı ki, "qızıl gəncliy"in nümayəndəsi olan 30 yaşlı, maliyyə dünyasının incəliklərindən o qədər də baş çıxarmayan oğlan təkbaşına bu cür hiyləgər fırıldağı həyata keçirə bilsin. Şübhə yoxdur ki, vaxtı gələndə ata və oğul Zeynalovlar hazırda bankın adına qeydiyyatdan keçirilmiş daşınmaz əmlakı qaytaracaqlar və ailə kapitalını daha da artıracaqlar.



**Məsələ ilə bağlı bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov "Yeni Müsavat"a maraqlı fikirlər söyləyib. Ekspert bankın Müşahidə Şurasının sədri və bankın faktiki sahibi olan Mahmud Məmmədovun "GünayBank"dan 100 milyon manatın mənimsənilmədiyini söyləməsinə diqqət çəkib:** "Maliyyə Bazarlarına Nəzarət Palatası da belə bir halın olmadığını açıqladı. Axı mətbuatda bankın rəsmi balansındakı 100 milyon manatın mənimsənilməsindən söhbət getmir! Banka kimlərinsə etibar etdiyi qeyri-rəsmi əmanətlərdən söhbət gedir! Yəni kimlərsə "GünayBank"a pul yerləşdirir və həmin pullar heç yerdə qeydə alınmır. Bankdan çıxarılan da həmin pullardır. Məncə, söhbət bundan gedir. Bu halda bank sahibi və Maliyyə Bazarlarına Nəzarət Palatası rahat şəkildə deyə bilir ki, belə hal yoxdur.

Yəni formal şəkildə 100 milyon manatın mənimsənilməsi yoxdur, faktiki isə var. Azərbaycan banklarında belə bir praktika olub. Vətəndaş banka gətirib əmanət qoyub, ona əmanətin qəbulu haqda sənəd veriblər, aylıq, illik faizlərini alıb. Amma əmanətin qəbulu rəsmiləşdirilməyib. Bankda Müşahidə Şurası sədrinin xəbəri olmadan belə bir halın baş verməsi mümkünsüzdür. Belə hallar baş verirsə, Maliyyə Bazarlarına Nəzarət Palatası hara nəzarət edir?

Bank nəzarətinin əsas məqsədi əmanətçiləri qorumaqdır. Əgər belə hallar baş verirsə, deməli, nəzarət də yoxdur.

Əslində bu xəbərlər yayılandan sonra bank sahibi və Maliyyə Bazarlarına Nəzarət Palatası çıxıb deməli idilər ki, "GünayBank"da qeyri-rəsmi əmanət qəbulu olmayıb, yoxdur. Bu günə qədər bu sözü deyən olmayıb. Onların özlərini belə aparması da şübhələri artırır".

**Əkrəm Həsənov Emin Zeynalovun bankda İdarə Heyətinin sədr müavini olaraq belə işləri təkbaşına görə bilməyəcəyi haqda iddialarla razıdır:** "Heç bankın İdarə Heyətinin sədri də o səlahiyyətlərin sahibi deyil. Sədr o halda belə addım ata bilərdi ki, Eldar Mahmudov kimi hamisi olardı. Vaxtilə Cahangir Hacıyevin Beynəlxalq Bankda etdiklərini "GünayBank"da təkrar edə bilərdilər. "GünayBank" rəhbərliyinin belə bir arxa-dayağı yoxdur. İnandırıcı deyil ki, Emin Zeynalov təkbaşına belə bir iş görə bilər. Ona rəhbərlikdən kimsə dəstək verməsə, belə addım ata bilməzdi. Bu məsələlər araşdırılmalıdır".

**Əkrəm Həsənov bankların qeyri-rəsmi şəkildə əmanət qəbulunun səbəblərini də açıqlayıb:** "Azərbaycanda zaman-zaman banklarında belə hallar olub. Banklarda əmanətlərin qeyri-rəsmi qəbulu ilə bağlı cinayət işləri də olub. Məlum olub ki, vətəndaş banka əmanət qoyub, kassa qəbzi verilib. Vətəndaş da arxayın olur ki, pulu bankdadır. Faktiki isə bank həmin əmanətin qəbulunu sistemə vurmur. Bunu etməklə vergidən yayınırlar, Əmanətlərin Sığortalanması Fonduna ödəniş etmirlər. Maliyyə Bazarlarına Nəzarət Palatası bir neçə banka əmanət yerləşdirilməsinə qadağa qoyub. "GünayBank"ın həmin sırada olduğunu bilmirəm. Mümkündür ki, banklar bu qadağanı əmanətləri rəsmi deyil, qeyri-rəsmi qəbul etməklə aşırlar".

Yayılan məlumatlarda "GünayBank"da 48 nəfərin 100 milyon manatının mənimsənildiyi deyilir. Bildirilir ki, həmin şəxslərin böyük əksəriyyəti məmurlardır.

Bu şəxslər banka əmanətlərini niyə qeyri-rəsmi yerləşdirirlər və ya buna razı olurlar?

**Ekspert deyir ki, bu halda məqsəd böyük pulların olmasını gizli saxlamaqdır:** "Bir çox hallarda həmin pullar rüşvət və korrupsiya yolu ilə əldə olunur. Bu həm də "çirkli pullar"ın "yuyulması"dır. Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Monitorinqi Xidməti hara baxır, bilinmir. Bank pulu qeyri-rəsmi götürürsə, sonradan rəsmi kredit kimi verə bilmir. Bankın balansında məbləğin haradan daxil olması bilinmirsə, avtomatik suallar yaranacaq. Mümkündür ki, həmin pulları alıb lombardlara yönəldiblər. Banklar kredit verilməsi ilə bağlı məhdudiyyətləri bu şəkildə aşırlar. Lombardlarda aylıq 10 faiz alırlar. İllik isə faiz dəfələrlə çoxdur. Şübhəli əməliyyatlar aparılması ehtimalı da var. Cinayət əməllərinə, terrorçuluğun maliyyələşməsinə həmin vəsaitlərdən istifadə edilməsini də istisna etmək olmaz. Zaman-zaman Dövlət Təhlükəsizlik Xidməti müxtəlif terror qruplaşmalarına aid şəxsləri ifşa edir, məhv edir. Bütün bu məsələlər araşdırılmalıdır. Yəqin ki, hazırda pərdəarxası proseslər gedir. İnanmıram ki, dövlət orqanları heç bir tədbir görmürlər. Ola bilər hazırda həmin pulların qaytarılması üzrə iş aparılır".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Paytaxtda tıxac problemi: daha 3 gün səbr edin...

## Anar Nəcəfli: "İki-üç gün ərzində təmir aparılan ərazidə sıxlıq problemi olmayacaq"

**İki gündür ki, Bakı-Sumqayıt yolunda tıxac problemi yenidən aktuallaşıb. Məsələ sosial şəbəkələrdə də geniş müzakirələrə səbəb olub. Həmin istiqamət üzrə hərəkət edən sürücülər, ictimai nəqliyyatdan istifadə edən vətəndaşlar bildirirlər ki, 2-3 saat tıxacda qalıb, axşam evlərinə, səhər də işə gecikirlər. Tıxac probleminin səbəbi ərazidən keçən yolun təmir olunmasıdır.**




**Ekspert İlqar Hüseynov** "Yeni Müsavat"a bildirib ki, həmin yol əslində payız ayında təmirə bağlanmalı idi:

"Çünki yay aylarında həmin istiqamətdə bağlara gedənlərin sayı hədsiz dərəcədə artır. İkincisi də hesab edirəm ki, əslində sözügedən yolda təmirə bir o qədər də ehtiyac yox idi. Alternativ yol təklif olunmalıdır. Bu yol da Binəqədi ərazisində Biləcəri istiqamətinə hərəkət etməkdir. Həmin yol da hazırda çox yüklənib. Orada da nəqliyyat iflic vəziyyətə düşüb. Yolu payız aylarında hissə-hissə təmir etmək lazım idi. Xırdalandan Bakı istiqamətinə ikinci bir alternativ yol yoxdur. Ona görə də heç bir variant mümkün deyil. Vətəndaşlar yalnız Xocasən yolu ilə Bakı dairəvi yoluna çıxıb, oradan da Yasamal ərazisindən şəhərə girə bilərlər. İkinci, üçüncü variant isə yoxdur".

**Məsələ ilə bağlı Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat katibi Anar Nəcəfli "Yeni Müsavat"a açıqlamasında fərqli fikirlər söylədi. A. Nəcəfli bildirdi ki, alternativ yolların siyahısı hələ onlar tərəfindən təmir işləri başlamazdan öncə təqdim olunub:** "Məsələ burasındadır ki, hər hansı bir iş görən zaman insanları heç vaxt razı salmaq mümkün deyil. Yəni görülən işlərlə bəzi qisim şəxslər razılaşırlarsa, bir qisim isə bunu qəbul etmir. Əgər biz təmir işlərini məktəb, universitetlərin açıq olduğu zaman aparsaydıq, o zaman da deyəcəkdilər ki, nə üçün təmir işlərini yay aylarına salmayıblar. Bu dəfə də narazı qalacaqdılar. Hazırda yay ayıdır və biz təmir işi görürük, deyirlər ki, nə üçün bunu qış aylarında etmirsiz? Bu məsələdə insanlarımız fərqli düşünürlər. Biz gözləyirdik ki, məktəb və universitetlər tətilə bağlansın və yolun təmirinə başlayaq. Deyim ki, həmin yol 10 ildən artıqdır ki, istismardadır və heç zaman da təmir olunmayıb. Nəticədə asfalt-beton örtüyünün üst qatında aşınmalar yaranmışdı. Həmin yol indi təmir olunmasaydı, bir müddət sonra təmir üçün daha böyük problemlər yaşana bilərdi. Nəticədə yol daha uzun müddətə bağlı saxlanılardı. Belə olsaydı, problem də indiki kimi olmazdı. Hazırda orada əməkdaşlarımız çalışırlar. Qısa müddət ərzində çalışılacaq ki, ərazidə təmir işləri yekunlaşdırılsın. Təxminən iki-üç gün ərzində həm avtomobil körpüsü ilə, həm də oradakı tunellə artıq hərəkət bərpa olunacaq. Orada hərəkət bərpa olunandan sonra "20 Yanvar" dairəsi, "Şamaxinka" deyilən ərazidə yaşanan sıxlıq aradan qaldırılmış olacaq. Ancaq təmir işləri hissə-hissə olmaqla qarşı tərəflərdə davam etdiriləcək".

**A.Nəcəfli bildirib ki, iyunun 27-də yaşanan sıxlıq olmayacaq:** "Çünki artıq insanlarımız alternativ yollardan istifadə edərək, mənzil başına çatırlar. Məsələn, Lökbatan-Xocasən yolundan, Bakı dairəvi yoldan, Novxanı-Pirşaxı, Sumqayıt-Pirşağı, Binəqədi yolundan istifadə etmək olar. Vətəndaşlar bu yollardan istifadə etməklə təmir ərazisinə girmədən, mənzil başına çata bilərlər. Alternativ yollarla bağlı daha öncədən məlumat vermişdik. Üç gün öncə məlumat yayan zaman həmin alternativ yolları da göstərmişdik ki, bu yollardan istifadə etmək olar. Ümumilikdə isə deyim ki, 6-11-ci kilometr hissədə aparılan təmir işlərində həm gediş, həm də gəliş hissə nəzərdə tutulub. Ümumi işlərin 20 gündən artıq davam etməsi nəzərdə tutulub. İndiki körpü istiqamətində yaşanan sıxlıq 2-3 günə tam olaraq açılacaq. Artıq orada ciddi problem olmayacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

# İrəvanın "islahatları" ABŞ-ı "qorxutdu" - Sərkisyan Bakıya gələcək?

**Amerikalı diplomatdan Paşinyana xəbərdarlıq:** "Elə etməyin ki..."; Ermənistanın baş naziri ilə prezidenti arasında çəkişmə böyüyür - səbəb; ABŞ-da səfərdə olan Armen Sərkisyan Ağ Evdə niyə qəbul edilmədi? erməni qəzetindən şok iddia...



**Ermənistanda "səssiz inqilab" dalğasında hakimiyyət dəyişikliyindən iki aya yaxın vaxt keçir. Bu müddət yeni baş nazir Nikol Paşinyanın fəaliyyəti ən çox populist vədləri və bir də ölkədə aparılan qalmaqallı həbslərlə yadda qalmaqdadır. Hələ ki işğalçı ölkənin əhalisinin sosial-iqtisadi durumunda müsbət heç bir irəliləyiş qeydə alınmayıb. Ermənistandan kütləvi köç də dayanmayıb. Paşinyanı hakimiyyətə gətirmiş narazı xalq ondan çörək, iş yerləri gözləsə də, baş nazir xalqı həbslərlə "yedizdirir". Vəd edilən dərin islahatlar isə gözə dəymir. Ermənistanda islahatların özündən çox, görüntüsü var yazsaq, əsla yanılmarıq.**

Zaman isə daralır. Çünki qəzəbli kütlə öz güzəranının yaxşılaşması üçün sonsuzadək gözləyib səbir göstərə bilməz. Günün birində Paşinyandan məyus olan xalq onu hakimiyyətə gətirdiyi kimi, oradan da sala bilər. Bu üzdən, deyəsən, "Amerika uşağı" Paşinyanın "islahatları" elə Amerikanın özündə də narahatlıq yaratmağa başlayıb.

*****

"Ermənistanın yeni hakimiyyətinin korrupsiyalaşmış generallara və xadimlərə qarşı atdığı addımlar tərifə layiqdir. Ancaq daha çox iş görmək lazımdır. Bu, heç bir halda sırf bəzi korrupsiyalaşmış xadimlərə qarşı mübarizəyə çevrilməməlidir. Ədliyyə sistemində və məhkəmə strukturunda ciddi islahatlar həyata keçirmək, həmçinin siyasi və iqtisadi sferaları ayırmaq zəruridir".

"Yeni Müsavat" AzadlıqRadiosunun erməni bölümünə istinadən xəbər verir ki, bu sözlər ABŞ-ın Gürcüstandakı keçmiş səfiri Kenet Yaloviçin Ermənistandakı son durumla bağlı İrəvan rəsmlərinə ünvanlı müraciətindəndir. Eks-diplomatın sözlərinə görə, korrupsiya ilə mübarizə zamanı qanunçuluğu və insan haqlarını qorumaq mühüm şərtdir.

Gürcüstanla paralellik aparan sabiq diplomat ardınca Ermənistan hakimiyyətini öz qonşusunun səhvlərini təkrarlamamağa çağırıb. "Mixail Saakaşvili hökuməti oliqarxları və korrupsiyalaşmış xadimləri təqib eləməyə başladı, ancaq onun bu hərəkətləri açıq, şəffaf hüquqi proseslərlə müşayiət edilmirdi. Mən Ermənistan hökumətini bundan qaçmağa çağırıram", - deyə o əlavə edib.

Əlbəttə ki, dərin islahatlar üçün rəhbərlikdə siyasi iradənin olması birinci şərtdir. Rusiyanın vassalı sayılan Ermənistanda isə belə islahatları aparmaq asan məsələ deyil. Həm də o səbəbə ki, iri oliqarxların, keçmiş siyasi xadimlərin əksəriyyəti Rusiyaya, oradakı siyasi sistemə bağlı adamlardır. Yeni qalmaqallı həbslərlə əslində doyasıyla Rusiyanın Ermənistandakı "quyruğu" da tapdanmış olur...

*****

Bu arada İrəvandakı "Qraparak" qəzeti baş nazir Nikol Paşinyanın prezident Armen Sərkisyanla münasibətlərinin kəskinləşməkdə olduğunu yazıb. "Yen Müsavat"ın məlumatına görə, qəzet bu rəqabətin ən çox da xarici siyasət sferasında özünü göstərdiyini yazıb.

**Sitat:** "Bizdəki məlumata görə, mümkündür ki, Armen Sərkisyan Bakıya gedəcək. Hərçənd prezidentin iqamətgahındakı mənbələrimiz bunu absurd hesab edir. Həmçinin informasiya var ki, Arnmen Sərkisyan İrana gedəcək".

Qeyd edək ki, hazırda A.Sərkisyan ABŞ-da səfərdədir. Bura o, Avropadan gəlib. Məlumatlara görə, səfərdə əsas məqsəd Ermənistana böyük sərmayə və sərmayəçilər cəlb eləməkdir. O sırada varlı Amerika və Avropadakı zəngin erməni lobbisinin yeni erməni hakimiyyətinə qarşı daha səxavətli olacağına ümidlər bəslənir.

"Bəli, Avropa və ABŞ-a səfər öncəsi Armen Sərkisyan İranın Ermənistandakı səfiri ilə görüşüb. Ancaq İrana səfər məsələsi müzakirə edilməyib. Bununla belə, bizdəki bilgilərə əsasən, Armen Sərkisyan İrana gedəcək. Bizə deyilib ki, "yekun tarix dəqiqləşdirilir". Yaxın günlərdə - iyunun 11-12-də isə Nikol Paşinyan NATO-nun sammitinə qatılmaq üçün Brüsselə gedəcək - hansı sammitdə ki, əsas mövzu Rusiya təcavüzünü önləməklə bağlı olacaq", - deyə "Qraparak" sonda vurğulayıb.

*****

"Yeni Müsavat" olaraq, Paşinyanın Brüssel səfərinin Rusiyada ciddi qıcıq yaradacağı, hətta bunun Kremlə qarşı faktiki de-marş olacağını yazmışıq. Üstəlik, sammitdə Rusiya əleyhinə kontur-tədbirlər xüsusi diqqətdə olacaq. Bu mənada işğalçı ölkənin prezidentinin və baş nazirinin daha çox Qərb paytaxtlarına üz tutması, eyni zamanda ABŞ-a xoş getmək üçün İrana səfərlərdən çəkinməsi Moskvanın diqqətini çəkməyə bilməz.

Yeri gəlmişkən, Amerikaya 3 günlük səfərdə olan Armen Sərkisyan hələ ki Ağ Evdə prezident Donald Trampın qəbuluna düşə bilməyib. ABŞ hökumətində bu səfərə elə bir maraq gözə dəymir. Son məlumatlara görə, Sərkisyan ABŞ Senatında Ermənistan Respublikasının yaranmasının 100 illiyi ilə bağlı düzənlənən tədbirə qatılıb. Tədbirdə ABŞ Konqresi və Senatının bir sıra üzvləri, habelə ABŞ Administrasiyasının bəzi yüksək çinli şəxsləri, Amerika erməni icmasının nümayəndələri iştirak ediblər.

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Manyak Dermotun unuda bilmədiyi epizod



**Xalid KAZIMLI**

**Bu günlərdə oxuduğum bir kitabda qəribə bir detalla rastlaşdım, çox tanış gəldi. Əsərin personajının psixoloji ovqatı bizim bir sıra siyasi fəalların psixoloji ovqatı ilə müəyyən mənada üst-üstə düşür.**

Sözügedən əsər Con Verdonun "Fikrində bir ədəd tut" romanıdır.

Əsərin personajı uşaq vaxtı psixoloji travma alıb: onun işki düşkünü olan polis atası uşağın gözünün qarşısında anasına zor tətbiq edib, çiliklənmiş viski şüşəsi ilə onun boynuna ardıcıl zərbələr endirib, nəticədə qadın hərəkət qabiliyyətini itirib, iflic olub. Aradan 24 il keçib, uşaq böyüyüb 30 yaşlı, Dermot soyadlı gənc olub, amma psixikasını zədələyən həmin epizodu unuda bilmir, qisas almaq istəyir. Adam artıq manyaka çevrilib və öldürmək istədiyi qurbanına 24 il öncəki "zorakı ata" rolunu oynatmaq, amma bu dəfə zamanı durdurmaq, "zorakılıq etməyə hazırlaşan şəxs"ə mane olaraq onu öldürmək istəyir. Çünki 24 il öncə o, zəif olub, qəddar atasına gücü çatmayıb, indi isə güclüdür və özünü həmin "ədalətsizliyi aradan qaldırmaq" gücündə hiss edir.

Belə bir psixoloji ovqat zaman-zaman istər 4 iyun 1993-cü il hadisələrinə münasibətdə, istərsə də 15-16 oktyabr (2003-cü il) hadisələri xüsusunda bizi çulğayır və biz indiki ağlımızla, indiki informasiyalarımızla ("indiki gücümüzlə" də demək olardı, sadəcə "hansı gücdən söhbət gedir" sualı çıxacaqdı) 18 və 25 il öncə baş verən tarixi hadisələrə qiymət verməyə çalışırıq. Hətta bu, qiymət verməkdən daha çox, zamanı durdurmaq, "tarixi ədalətsizliyi" aradan qaldırmaq cəhdinə bənzəyir. Biz o illərdə ilişib qalmışıq, hər dəfə o hadisələrin ildönümündə söhbət hərlənir-fırlanır, "faciədən necə qaçmaq olardı" mövzusunda uzun-uzun polemika aparırıq.

Eyni söhbət 15-16 oktyabr hadisələrinə də aiddir. Sadəcə, bu məsələ təkcə hər iin oktyabrında aktuallaşmır, ölkəmizdə istənilən seçki olanda yada düşür. Hətta təkcə öz ölkəmizdə yox, qonşu ölkələrdə seçki və ya hansısa inqilabi hadisələr olanda da mütləq xeyli özünü ekspert rəyi bildirməyə hazır hesab edən adamlar tapılır ki, o ölkələrdə gündəmin əsas simasını mütləq İsa Qəmbərlə müqayisə edirlər və yazırlar: "Filankəs İsa Qəmbərdən fərqli olaraq xalqı müqavimətə çağırdı", "O, İsa Qəmbərdən fərqli olaraq xalqdan aldığı səsi müdafiə etməyə çalışdı" və s.

Hazırda bu müqayisə Türkiyədə 30 faizdən artıq səs almış, ancaq məğlubiyyətini etiraf etmiş Məhərrəm İncəylə İsa Qəmbər arasında aparılmaqdadır.

Əslində bütün müqayisələr qüsurlu olduğu kimi bu da qüsurludur. 2003-ün oktyabrında ölkəmizdə olan durumla bu günün Türkiyəsindəki durumun arasında yüzlərlə həlledici fərq var. Üst-üstə düşən məqamlar isə demək olar ki, yoxdur. Türkiyədə keçirilən seçkilərlə Azərbaycanda keçirilən seçkilər heç vəchlə müqayisə oluna bilməz. Oxşar cəhətlər yalnız o ola bilər ki, hər iki durumda hakimiyyətdə olanlar müxalifətdə olanlardan bütün həlledici parametrlərdə güclü çıxdılar və öz hakimiyyətlərini qoruyub saxladılar.

Bu iki hadisənin fərqlilikləri, təfərrüatları barədə cild-cild kitablar yazmaq olar. Amma heç ərinmədən, sıxılmadan rahatca müqayisə aparanlar və ciddi-ciddi nəticələr çıxaranlar var.

Əslində bu ciddi təhlillərin predmeti deyil. Məqsəd və Türkiyədəki müxalifət liderini aşağılamaq, ya da növbəti fürsətdən istifadə edərək "anti-Qəmbət" demarşını davam etdirməkdir.

Bəzi adamlar hələ də 2003-ün oktyabrında qalıblar, çevirib-çevirib eyni şeyləri yazır, deyirlər: "İsa Qəmbər oktyabrın 16-da meydana gəlsəydi...".

Nə olacaqdı? Sanki hər şey bundan asılıymış. Həmin gün İsa Qəmbər meydana gəlsəydi də, gəlməsəydi də, nəticə dəyişməyəcəkdi. Məgər son 18 ildə ölkəmizdə baş verən hadisələr, gedən siyasi proseslər bu çılpaq həqiqəti hər kəsə göstərməyibmi? İsa Qəmbər meydana gəlsəydi, daha doğrusu, müqaviməti davam etdirməyə çağırsaydı, daha çox adam döyüləcək, tutulacaqdı. Və bütün bu hadisələrin məsuliyyətini daşıya bilməyən İsa Qəmbər (və yaxud bir başqası) siyasi karyerasını bitirməli olacaqdı.

Deyəsən, bir çoxlarına məhz bu lazım imiş. Hamı sıradan çıxsın, meydan birinə qalsın.

Yoxsa "Fikrində bir ədəd tut" romanındakı manyak kimi eyni epizodu unuda bilməməyin başqa bir izahatı yoxdur.

**P.S.** *Türkiyəli futbolçuların məğlub olduqları oyunlardan sonra tez-tez təkrar etdikləri bir ifadə var: "Önümüzdəki oyunlara baxacağıq". Onların sözü olmasın, keçmişlə əlləşməkdən qurtarıb, önümüzdəki seçkilərə, oyunlara baxmaq lazımdır.*

# Bəşər Əsədin təyyarələri Azərbaycan üzərindən uçur

## Gürcüstan hökuməti ölkənin hava məkanını Suriyanın "Syrian Air" və "Cham Wings" aviaşirkətlərinə bağladı

**Suriyanın Gürcüstandan birtərəfli qaydada müstəqilliklərini elan etmiş Abxaziya və Sxinval (Cənubi Osetiya) regionlarının suverenliyini rəsmi olaraq tanıması səbəbindən Gürcüstan hökuməti ölkənin hava məkanının Suriyanın "Syrian Air" və "Cham Wings" aviaşirkətlərinin təyyarələri üçün bağlandığını elan edib. Virtualaz.org "Sputnik"ə istinadən xəbər verir ki, bu barədə məlumatı "Reuters" yayıb.**




Bundan öncə, mayın 29-da Dəməşqin sözügedən hərəkətinə cavab olaraq rəsmi Tiflis Suriya ilə 1994-cü ilin may ayının 18-də qurulmuş diplomatik əlaqələrin kəsilməsi barədə bildirmişdi.

"Təsdiq edirəm ki, Gürcüstan iki Suriya aviaşirkəti üçün hava məkanını bağlayıb", - bunu "Sakaeronaviqasiya" MMC-nin baş direktoru Qoça Mezvrişvili deyib.

"Reuters" əlavə edir ki, artıq iyun ayından başlayaraq, Suriya aviaşirkətləri Rusiya istiqamətində reysləri Gürcüstan hava məkanından istifadə etməklə yerinə yetirmirlər. Təyyarələr Azərbaycanın üzərindən uçurlar ki, bu da uçuş müddətini təxminən yarım saat uzadır.

1990-cı illərin əvvəllərindən rəsmi Tiflis Abxaziya və Cənubi Osetiyaya nəzarəti itirib. 2008-ci ilin avqust müharibəsindən sonra isə bu ərazilərin müstəqilliyi Rusiya tərəfindən tanınıb və Gürcüstan rəsmi Moskva ilə diplomatik əlaqələri kəsib. Bu iki separatçı rejim sonradan Venesuela, Nikaraqua, Nauru, Tuvalu və Vanuatu tərəfindən tanınıb. Lakin bir müddət sonra sonuncu iki dövlət (Tuvalu və Vanuatu) Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan ediblər.



# Bakan çox olarsa

Zamin HACI
zaminhaci@gmail.com

"Min yeyənin olsun, bir deyənin olmasın"
*(temaya zidd ata sözü)*

**Təsadüfən eyni gündə Gürcüstan və Azərbaycanda mədəniyyət nazirliklərinə aid hadisələr oldu. Bizdə bu nazirliyə müavinlər, bəzi işçilər təyin olundu, gürcülər isə idarəni kökündən ləğv elədilər. İndi bu proseslərdən hansı nəticələr çıxır? Gürcülər Mədəniyyət Nazirliyi olmasa batacaqlarmı, vəhşiləşib mədəniyyətsiz sürüyə çevriləcəklərmi? Qətiyyən. Gürcülər hələ sovet vaxtından öz filmləri, ədəbiyyatları, teatr, musiqi xadimləri ilə dünyada tanınırdılar, biz isə, pis çıxmasın, Biləcərini o yana keçə bilmirdik. Sadəcə, iki misal çəkəcəyəm. Gürcülər hələ 1982-ci ildə Kafkanın, Folknerin, Qabriel Qarsia Markesin əsərlərini gürcü dilinə çevirib dərc eləmişdilər. Bizim AYB üzvləri isə həmin vaxtlar dövlətdən cürbəcür pullar sümürüb kolxoz quruculuğunu tərənnüm edən cızmaqaralar yazırdılar, ən yaxşı halda bolşevik şairi Demyan Bedni-ni dilimizə çevirirdilər.**

Yaxud bizdə dissident ədəbiyyatı, sandıq üçün yazılan, senzuraya məruz qalmış ədəbi-bədii mətnlər demək olar yox idi, sıfır səviyyəsində idi. Örnək üçün, Yusif Səmədoğlunun 1987-ci ildə çıxan "Qətli günü" romanını, o cümlədən Elçinin "Ölüm hökmü" kitabını biz bəh-bəhlə kommunizm rejimi əleyhinə əsər sayırdıq, fəxr edirdik, hər yerdə indiyə qədər də deyənlər var. Ancaq gürcü rejissor Tengiz Abuladze hələ 1984-cü ildə "Tövbə" kimi şedevr film yaratmışdı və mövzu, qaldırdığı ictimai-siyasi problemlər baxımından perestroykanı da qabaqlamışdı. Yəni bizimkilərin yazdıqları "dovşanın suyunun suyu" idisə, konyukturçuluq, "zamanın nəbzini tutmaq", partiya sifarişi idisə, Abuladze sözün əsl anlamında qanını qaşığa qoyub əsər yaratmışdı.

Eyni zamanda indi bizdə Mədəniyyət Nazirliyinin səlahiyyətlərini lap şişirdib fövqəlnazirliyə çevirsən də bundan mədəniyyətimiz artmayacaqdır. Çünki mədəniyyət nazirlik hesabına yox, azadlıq, demokratiya, iqtisadi tərəqqi hesabına artar. Yenə vaxt ötəcək, idarə daxilindən bir məmur-şair peyda olaraq "Əbülfəz müəllim, adına qurban" nəzmi tipində şeylər yazacaqdır.

Nazirlər Kabineti srağagün "Yaşıllıqların salınması qaydası"na dəyişiklik etmiş, orada ağacların seçilməsi, faydalılığı, iqlimə və sairəyə uyğunluğunu müəyyən etməyi Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırmışdı. Yaxşı qərardır, ancaq təəccüb də doğurur: bəs bunu indiyə qədər kim edirmiş? Hansı nazirlik ağacları seçirmiş? Maraqlıdır. Ümid edirəm açıqlayarlar və bu idarə polis nazirliyi olmaz.

İqtidarın hər zaman tərif vurduğu, aləmə car çəkdiyi ASAN-xidmət projesi nəyə görə uğurlu alınıb, bilirsinizmi? Bunun çox sadə səbəbi var: bürokratik aparat bir dam altında cəmləşdirilib, insanların çoxlu yox, bir dövlət qurumu ilə üzləşib aradan çıxmasına pis-yaxşı şərait yaradılıb. Vəssalam. Burda başqa sirr yoxdur. Elə bunun özü dövlətsizləşdirmənin, müxtəlif rəsmi qurumların sayının azaldılmasının daha uğurlu olduğunu göstərmirmi? Nazirlik nə qədər az olsa, insanlar o qədər yaxşı yaşayır - reallıq belədir. Bizdə isə əksinə, nazirliklərin, dövlət idarələrinin sayı ildən-ilə çoxaldılır. Yanılmıramsa, hazırda bizdə Uçan Kulokları Tutma Nazirliyi, Küçə İtləri Komitəsi, İşıq gələn son deşiyin qapanması şöbəsi, Qənddandan Qənd Oğurlayanlara Qarşı Mübarizə üzrə Dövlət Baş İdarəsinin regional şöbələri və sairə və ilaxır yaradılmışdır. Bunlar hamısı dövlət aparatını bütün xalqı həzmi-rabedən keçirməyə, basıb udmağa hazır monstra, əjdahaya çevirmək üçündür. İşsizlərə guya iş axtaran məmurların sayı işsizlərdən çoxdursa, əlillərə vəsiqə satan məmurlar əlillərdən artıqdırsa, senzor müxbirdən, mədəniyyət çinovniki kitab naşirindən, nə bilim, baxan yeyəndən, bakan (Osmanlılar demiş) işləyəndən çoxdursa, belə mexanizm səmərəli ola bilməz.

# Türkiyə-Aİ danışıqlarında yeni çatlar

## Avropa Ərdoğanın qələbəsini həzm edə bilmir

**Türkiyənin Avropa İttifaqına üzvlük üçün apardığı danışıqlarda yeni çatlar əmələ gəlib. İyunun 26-da Avropa İttifaqı Şurasının genişlənmə məsələsinə dair təqdim etdiyi qətnamə layihəsində ölkədəki hüquq və azadlıqların müxtəlif sahələrdə müşahidə olunan neqativ tendensiyalara görə Türkiyənin Aİ-dən getdikcə uzaqlaşdığı, bu səbəbdən birliyə daxil olmaq üçün rəsmi Ankara ilə aparılan danışıqların dalana dirəndiyi barədə açıqlamanın verilməsi tərəfləri üz-üzə qoyub.**

Türkiyə tərəfi artıq məsələyə sərt reaksiya verib.

Avropa İttifaqı Şurasının Türkiyənin quruma üzvlüyü ilə bağlı mövqeyi ikiüzlü və əsassızdır.

AzVision.az xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda əks olunub.

Bildirilib ki, Aİ Şurasının 26 iyundakı iclasında qəbul edilən sənədlərin Türkiyə ilə bağlı hissəsi ittifaqın Ankaraya qarşı qərəzli və qanuni idarəçiliklə uzlaşmayan mövqeyini əks etdirir.

"Həmin sənədlərdə ölkəmizin üzvlüyə namizədlik statusuna xələl yetirilməklə yanaşı, "Avropa İttifaqının genişlənməsi" bölümündə qoşulma müddətimizin sonrakı prosesinin məntiqsiz bir səbəb-nəticə əlaqəsi üzündən yeni şərtlərə bağlanmasını heç bir şəkildə qəbul etmirik", - deyə Türkiyə XİN-in bəyanatında qeyd olunub.

Həmçinin o da qeyd olunub ki, həm Türkiyə, həm də Aİ-nın maraqlarına xidmət edəcək Gömrük İttifaqı üzrə əməkdaşlığın yenilənməsinin şərtlərlə əlaqələndirilməsini anlamaq çətindir.

Ekspertlər 24 iyun seçkilərindən sonra Aİ-nin belə sərt mövqe tutmasının təsadüf olmadığını, yenidən prezident seçilən Rəcəb Tayyib Ərdoğanın qalibiyyətinin Avropa tərəfindən həzm edilmədiyini qeyd edirlər. Türkiyəni bu cür təzyiq vasitələri ilə özlərinə tabe etmək cəhdlərinin olduğu da vurğulanır.

**Politoloq Nəzakət Məmmədova bildirdi ki, Türkiyə və Avropa Birliyi son onillikdə bir-birindən xeyli dərəcədə uzaqlaşıblar:** "İnsan haqları və demokratiya daima Qərbin əlində bir ölkəni sıxışdırmaq üçün vasitə olub və ondan bu gün Türkiyəyə qarşı istifadə edirlər. Halbuki həmin Türkiyə dünyada insan haqlarının ən böyük himayəçilərindən biridir ki, 3 milyon suriyalı qaçqına öz ölkəsində yer və vətəndaşlıq verib. Türkiyə bir sədd kimi qaçqın axınının qarşısında dayanaraq, Avropanı miqrant selindən qoruyub. Xatırlayıram, 2016-cı ilin may ayında İstanbulda Beynəlxalq Humanitar Forum keçirildi. Azərbaycan prezidenti də orada fəal iştirak etdi. BMT-nin baş katibi də orada çıxış etdi. Amma Merkel istisna olmaqla, insan haqlarından danışan heç bir Avropa Birliyi ölkəsinin lideri orada iştirak etmədi. Əgər insan haqları ümumbəşəri dəyərdirsə, niyə Avropa liderləri orada yox idi? Ona görə ki, bu cür mötəbər tədbiri Türkiyə təşkil etmişdi. Onlara Türkiyənin insan haqları qayğısına qalan dövlət obrazı sərf etmirdi. Onlar Türkiyəni barbar dövlət kimi göstərməyə çalışır, onun heç bir demokratiya və insan haqlarına cavab verən tədbirdə adının yaxşı mənada hallanmasını istəmirlər. Avropa tarixçiləri Osmanlını da bu cür gözdən salmağa çalışıb, indi də bu işi Avropa Birliyindəki dövlətlər davam etdirir. Halbuki Osmanlı insan haqları sahəsində dünyada ən humanist imperiyalarından olub. Ərdoğan prezident seçiləndə onu ilk təbrik edən Macarıstan oldu. Nəyə görə? Avropanı fəth edərkən Macarıstanın bir hissəsini tutan türklər orada əhalini öz xristian krallarının zülmündən xilas edib. Bir neçə il vergi almayıblar ki, tayfalararası müharibələrdən və ağır vergilərdən cana doyan əhali özünə gəlsin. Osmanlı imperiyası insan haqlarını qoruyanda Avropada insanları mütərəqqi baxışlarına görə inkvizisiya təqib edir, dini ayrı-seçkilik zəminində katolik və protestantlar əsrlər boyu bir-birini amansızlıqla öldürürdü. Türkiyənin insan haqlarının qorunması sahəsində böyük təcrübəsi var. Avropa Birliyi bəyanat verməklə bu iş olmaz. Özü ən böyük ayrı-seçkilik salan, xristian katolik klubu Avropa Birliyidir ki, 60 ildən çoxdur müsəlman ölkəsi olduğuna görə Türkiyəni üzvlüyə qəbul etmir".

**Politoloq hesab edir ki, ikili standartlar Avropanın ən böyük qüsurudur:** "Elə onun süqutu da yəqin ki, bu səbəbdən baş verəcək. Çünki problemlərə ədalətli yanaşma yox, ikili standartlar prizmasından baxış bucağı formalaşıb. Bu isə təhlükəli bir tendensiyadır. Avropa Birliyi Türkiyənin ona tabe olmasını istəyir. Çünki Aralıq dənizinə çıxışı olan, Avropa ilə Asiyanı birləşdirən, strateji boğazların olduğu NATO üzvü müsəlman ölkəsi məhz Türkiyədir. Şübhəsiz ki, birliyin son bəyanatı da seçkilərlə birbaşa bağlıdır və onların nəticələrdən narahat olmasının təzahürüdür. Seçki öncəsi də Avropa Birliyi bəyanat verərək iradlarını bildirmişdi. Seçkilərin fövqəladə hal rejimində keçirilməsini, Türkiyənin Avropadan uzaqlaşdığını tənqid etmişdi. Eyni zamanda bəzi Avropa ölkələri, məsələn, Almaniya, Hollandiya, Avstriya öz ərazisində Ərdoğan tərəfdarlarının toplanıb seçki təşviqatı aparmasına icazə vermədi. Bu da onların AK Parti və şəxsən Ərdoğanın hakimiyyətdə qalmasından narahat olduqlarını göstərir. Ərdoğan onların iradəsinə tabe olmayan, müstəqil düşüncəli, Türkiyəni daha çox Rusiya ilə yaxınlaşdıran bir liderdir. NATO-dakı avropalı müttəfiqlər və ABŞ Türkiyəyə qarşı terror təşkilatlarını silahlandırır, onu parçalamaq planları üzərində variantlar işləyib hazırlayırlar. Osmanlını "Avropanın xəstə adamı" adlandıran, Sayks-Piko, Sevr sövdələşmələrini masaya qoyan Avropa və Amerika bu gün də yüz il əvvəlki siyasətlərini təkrar edirlər. Bu fonda insan hüquqları, demokratiya və s. bəhanədir. Türkiyəyə təzyiq cəhdindən başqa bir şey deyil. Seçkilərdə Ərdoğanın qələbəsi onları çox narahat edib. Çünki CHP və ya İyi Parti iqtidara gəlsəydi onlara Türkiyə ilə işləmək daha rahat olardı. 1923-dən bəri bu cür iqtidarlarla, hökumətlərlə işləyiblər. İndi isə Türkiyənin başında Osmanlı ənənələrinə sadiq bir lider dayanıb və avropalıların Osmanlı təlaşı baş qaldırıb. 1453 İstanbulun fəthini, Vyananın iki dəfə mühasirəsini onlar təbii ki, unutmayıblar. Türkiyə demokratiya və dünyəvilik pərdəsi altında onlara daha çox sərf edir, nəinki Osmanlıya qayıdış ruhunda olan Türkiyə. Üstəlik də, İslam dünyasında liderlik ambisiyası var. Afrikada həm türklərin, həm avropalıların müstəmləkələri olub. Bu gün həm Türkiyə, həm də Fransa, Amerika, İngiltərə Afrikada, Yaxın Şərqdə nüfuz savaşı aparır. Geosiyasi və enerji maraqları toqquşur. Üstəlik də, Türkiyə Avropa Birliyi ilə enerji



tranziti məsələsində bəzi fikir ayrılıqlarına sahibdir. Suriya ərazisindən Qətər qazının Avropaya nəqlində də ziddiyyətli yanaşmalar var. Türkiyə NATO-nun İncirlikdəki bazasında Avropaya, xüsusən Almaniyaya bəzi məhdudiyyətlər qoyub. Öz ərazisində Rusiyanın yardımı ilə nüvə elektrik stansiyası tikir, NATO-ya düşmən olan Rusiyadan Alyansın arsenalında olmayan S-400 alır, BMT-də "Dünya 5-dən böyükdür" deyərək islahatlar aparılmasını istəyir, hərbi sənayesini inkişaf etdirir və s. Bütün bunlar Avropa və Türkiyə arasında ziddiyyətlərə səbəb olub. Görünür, Avropa seçkidən dərhal sonra müxalifətin qələbə çala bilməməsindən məyus olaraq Türkiyəyə hədd bildirmək qərarına gəlib. Bu, ən azından psixoloji təzyiq formasıdır. Digər tərəfdən, yəqin ki, bundan sonra da fürsət olduqca Türkiyəyə təzyiq göstərməyə çalışacaqlar. Lakin Ərdoğanın duruş gətirəcəyi şəksizdir".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

# Avropa Birliyindən Azərbaycana qarşı 3 milyonluq addım

**Avropa Birliyi suriyalı qaçqınların inteqrasiyasına yardım üçün Ermənistana üç milyon avro ayırıb. Bununla bağlı "RİA Novosti" agentliyi Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinə istinadla məlumat yayıb. Məlumatda bildirilib ki, iyunun 21-də Brüsseldə Avropa Birliyi-Ermənistan əməkdaşlıq şurasının ilk iclası keçirilib: "Şuranın iclasında vurğulanıb ki, Suriyada siyasi münaqişənin həlli müstəsna əhəmiyyətə malikdir. Suriyalı qaçqınların Ermənistana inteqrasiyası üçün Avropa Birliyi "Madad" fonduna üç milyon dollar ayırıb".**

## **Zahid Oruc:** "Onlar hesab edirlər ki, Rusiyanın pəncəsi altından Ermənistanı vurub çıxarmaq olar, lakin Putini hələ tanımırlar"

## **Akif Nağı:** "Avropa Birliyi bilərəkdən ermənilərin qanunsuz hərəkətlərinə dəstək verir"

Bildirilir ki, münaqişəyə qədər Suriyada erməni icmasının 110 min üzvü olub. Müharibənin başlanmasından sonra ölkəni 90 min erməni tərk edib. Onların böyük qismi Livan, İordaniya, Türkiyə və Ermənistanda yerləşib. Rəsmi İrəvanın açıqlamasına əsasən, Ermənistanda məskunlaşan ermənilərin sayı 22 min nəfər təşkil edib. Lakin son illərdə dəfələrlə məlumatlar yayılıb ki, Suriyadan erməni mənşəli ailələr və terrorçu ünsürlər əvvəlcə Ermənistana gətirilir, bir müddət sonra isə işğal altındakı Azərbaycan ərazilərində məskunlaşdırılır.

İrəvan dəfələrlə ölkəyə əlavə valyuta ehtiyatlarının cəlbi üçün Suriya erməniləri adından istifadə edib. Hətta İrəvan erməni diasporunun maliyyə imkanlarından yararlanaraq, Zəngilan və Qubadlı rayonlarının ərazilərində Suriya erməniləri üçün şəhərciklər salmağa cəhd də göstərib.

Amma Suriya ermənilərinin heç də hamısı Ermənistanda yaşamaq istəmir. Belə ki, Ermənistana gələn bu ermənilər ölkədəki işsizlik və ağır iqtisadi vəziyyət ucbatından daha yüksək rifah şəraitinin olduğu Avropaya müxtəlif vasitələrlə çıxış yolu əldə etməyə çalışırlar.

Bəs Avropa Birliyinin Suriya ermənilərinə yardım adı altında işğalçı Ermənistana vəsait ayırması Azərbaycana qarşı sayıla bilərmi? Azərbaycan buna ciddi etiraz bildirməlidirmi?

**Deputat Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Avropa Birliyi Ermənistandakı inqilabı mükafatlandırmaq üçün hər cür maddi həvəsləndirmə layihələri həyata keçirməyə hazırdır:** "Faktiki olaraq bir ay bundan əvvəl Nikol Paşinyanın hökumətə rəhbərliyinin yeni başlandığı günlərdə Avropa Parlamenti açıq-aşkar belə qətnamələr qəbul etmişdi ki, Avrasiya İqtisadi Birliyinə üzvlüyü Ermənistanı tamamilə Qərbin himayəsi altına götürməyə imkan vermir. Qətnamədə buna görə hətta təəssüf ifadə edilirdi. Göstərilə biləcək bir sıra yardımlar real investisiya şəklində olmasa da müxtəlif tariflər, rüsumlarda güzəştlər və sair kimi fiksal qurumlar vasitəsilə edilə bilərdisə, onları reallaşdıra bilmirlər. İndi isə konkret məsələ ortaya çıxıb. Suriya probleminə siyasi münasibətdə açıq-aşkar Rusiyanın mövqeyini müdafiə etdiyini göstərən bir dövlətə indi Avropa Birliyi maliyyə dəstəyi verir.

Doğrudur, məbləğ çox kiçikdir, nə qədər onun vasitəsilə inteqrasiya edə bilər, bu, ikinci söhbətdir. Lakin ən önəmlisi burada Brüssel rəsmilərinin tutduğu mövqedir. Onlar həqiqətənmi bu vasitə ilə Suriyada olan ermənilərin böyük əksəriyyətinin Ermənistana köçürülməsində maraqlıdırlar, həqiqətənmi o ermənilərin sonrakı dövrdə gəlib Qarabağda məskunlaşdırıldığını görmürlər? Bu sualların bizim tərəfimizdən cavabı bəllidir. Amma Qərb tərəfindən belə qeyri-müəyyəndir ki, bu gün Suriyadakı vəhşətin içərisindən qopanların müəyyən bir hissəsi mülki vətəndaşlar qiyafəsində müxtəlif ölkələrin içərisində yerləşirlər? Avropa Birliyinin bu prosesə maliyyə ayırması gələcəkdə terrorçu mənşəli adamların maliyyələşdirilməsi anlamına gələ bilər. Bu gün verilən həmin vəsait nəinki adamların təzədən fərqli bir sosial, ictimai mühitə uyğunlaşmağına əsas verə bilər, əksinə, tamamilə onların cinayətkar əməllərinin daha da böyük şəkil almasında rol oynayar".

**Deputat bəyan etdi ki, Avropa Birliyi Azərbaycan əleyhinə regionda demoqrafik balans və yaxud hərbi-siyasi yöndə addımlar atmamalıdır:** "Bu, bizim bir tərəfdən münasibətlərimizin ruhuna ziddir. İkincisi, bu bölgədə Qərbin dayaqları məhz





Azərbaycandadır, Ermənistanda deyil. Paşinyan hökumətinə son veriləndə görəcəklər bunu. Açığı, indi Qərbin bəzi siyasətçilərinin özündə də eyforiya var. Onlar hesab edirlər ki, Rusiyanın pəncəsi altından Ermənistanı vurub çıxarmaq olar. Onlar çox naşıdırlar, Putini hələ tanımırlar. Avropa Birliyi bilməlidir ki, kənardan nə qədər erməni gətirib yerləşdirilsə belə, Ermənistan Qərbin ola bilməyəcək. Ona görə də bizim tərəfdən veriləcək addımlar siyasi müstəvidə ola bilər. Cavabdehlik məsələsində isə şübhəsiz ki, onlar bunu humanitar addım kimi izah edəcəklər. İndi absurd bir vəziyyət yaranır ki, Ermənistan az qala Suriyaya düşən paydan özünə götürür. Bu gün 300 milyard dollardan artıq vəsaitə ehtiyac duyan, bərpa üçün hər cür yardımı qəbul edə biləcək durumda olan Suriya xalqı ortada olduğu bir vaxtda, Ermənistan qaçqın adı altında Avropa Birliyindən yardım alır. Avropa Birliyi 380 milyon avro da nəzərə tutur ki, qarşıdakı dönəmdə Ermənistana kömək göstərsin. Məqsəd odur ki, inqilab ayaqda qalsın, yeni hökumətin anti-Rusiya mövqeyi müəyyən qədər güclənsin, Qərblə əlaqələr formalaşsın. Yekun etibarilə mən, ümumiyyətlə, düşünürəm ki, Ermənistan insan resursu problemini heç bir kənar axınlarla həll edə bilməz. Sadə vətəndaşların qoyub getdikləri ölkəni kənardan gələnlər tutub yaşayası deyillər. Suriyadan gələn erməni səngərdə manvel qriqoryanlar üçün döyüşməyəcək. Kənardan gələnlər neçə dəfə köçkün olmaq istəyərlər ki? Kənardan gələn ermənilərin Qarabağda real savaşacaqları mənə inandırıcı görünmür. Monte Melkonyan və sair nümunələri 1989-cu il, 1990-cı ilin ilk illərində idi və o dövr ayrı dövr idi. İndi ümumxalq mübarizələrini yerli vətəndaşlar aparmadığı halda Suriyadan qopub gələn adamların onlarla çiyin-çiyinə döyüşəcəkləri o qədər real görünmür. Amma bununla belə, biz arxayınçılıq mövqeyi tutmalı deyilik. Ermənistan istəyəcək ki, Qarabağda müharibə başlayacağı halda Suriyadan gələn ermənilər də döyüşlərdə iştirak etsinlər. Onlara qurbanlıq qoyun kimi baxacaqlar. Ona görə də biz gərəkən addımları atmalıyıq".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı isə bildirdi ki, söhbət Ermənistana ayrılan maliyyənin məbləğinin azlığında-çoxluğunda deyil. Əsas diqqət ayrılmalı və etiraz edilməli məsələ Avropa Birliyinin beynəlxalq qanunlara, hüquq normalarına hörmətsizliyidir:** "Azərbaycan dəfələrlə bildirib ki, Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz köçürmə etməklə, o cümlədən Suriyadan erməniləri köçürməklə beynəlxalq normaları pozur. Hətta Minsk Qrupu da bir neçə dəfə Ermənistanı bu hərəkətlərdən çəkinməyə çağırıb. Deməli, Avropa Birliyi bilərəkdən ermənilərin qanunsuz hərəkətlərinə dəstək verir, onların qeyri-qanuni hərəkətlərinə bəraət qazandırır. Azərbaycan bu məsələni sərt şəkildə qaldırmalı, Avropa Birliyinin bu hərəkətlərini hətta beynəlxalq məhkəməyə, məsələn, Haaqa Məhkəməsinə qaldırmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# PKK-nın siyasi qanadı HDP-yə Bakıdan dəstək verənlər

## Ekspertlər problemin ciddiliyinə diqqət yönəldib çıxış yolu göstərdilər

**Türkiyədə keçirilən prezident seçkilərində Azərbaycanda yaşayan türk vətəndaşların seçimləri hər zaman diqqət çəkib. İyunun 24-dəki seçkilərlə bağlı səslər əsasən üç namizəd arasında bölünüb. Belə ki, ölkəmizdə yaşayan 15 477 seçicidən 5742-si səs verib. Hazırkı prezident və seçkilərin qalibi 38% (805 səs), CHP namizədi Məhərrəm İncə 33,9% (717 səs) və kürdlərin namizədi, HDP lideri Səlahəddin Dəmirtaş 19,4% ( 411) səs toplayıb.**

PKK terror təşkilatının siyasi qanadı sayılan HDP-nin Azərbaycanda bu qədər sayda tərəfdarının olması maraq doğurur. Onların əksəriyyətinin iş adamları olduğu bildirilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Azərbaycanda HDP tərəfdarlarının sayının kifayət qədər çox olduğunu söylədi:** "Azərbaycanda müxtəlif Türkiyə vətəndaşları işləyib və yaşayırlar. Seçkinin nəticəsi də göstərdi ki, Azərbaycanda PKK-nın siyasi qanadı olan partiyaya rəğbət bəsləyənlərin sayı kifayət qədərdir. Türkiyədə yaşayan kürdlərin əksəriyyəti ölkənin ərazi bütövlüyünü dəstəkləyir və PKK-nın terrorçu fəaliyyətindən rahatsızdırlar. Ancaq kürdlərin içində PKK-ya rəğbət bəsləyən qruplar da var ki, məhz onların sayəsində HDP və bu partiyanın lideri Dəmirtaş gərəkli səs toplayıb. Beləleri Azərbaycanda da var. Onlar vaxtilə Azərbaycanda yerləşmiş və bizneslə məşğul olmağa başlayıblar. Onlara qarşı hansısa da tədbir görülsə, bu, həm milli ayrı-seçkiliyə, həm də demokratiyaya zidd olar. Hər bir insanın istənilən partiyaya və liderə səs vermək hüququ var. Bu hüquq Türkiyədə tanındığı kimi Azərbaycanda da tanınır və kimsə kürddür deyə ona qarşı hansısa tədbirin görülməsi kökündən yanlış olar. Azərbaycanın özünün də kürd əsilli vətəndaşları var ki, onlar Azərbaycanın ərazi bütövlüyünə sadiqdirlər və bunu Qarabağ uğrunda savaşda da isbat ediblər. Ancaq hər millətdə olduğu kimi kürdlər arasında da separatizmə və terrora meyl edənlər var. Əsas odur ki, belələrinin fəaliyyətləri və onlara dəstək verənlər müşahidə altında olsunlar. Azərbaycan PKK-ya rəğbət bəsləyənlərin məkanı olmamalıdır. HDP Azərbaycanda bu qədər səs alırsa, düşünməyə dəyər".

**Politoloq Əhəd Məmmədli ölkəmizdə yaşayan Türkiyə vətəndaşlarının əksəriyyətinin kürdlər olduğunu dedi:** "Onların da əksəriyyəti separatçılığa meyllidirlər. Hələ ötən əsrin 90-cı illərində Bakıda maşınlarda PKK-nın rəmzi olan qartal şəkilləri dəb halı almışdı. Ümumiyyətlə, Azərbaycanda hələ də təəssüflə qeyd etməliyəm ki, PKK və FETÖ güclüdür. Ümid edirəm ki, mövcud hakimiyyət qısa müddətdə bu problemi həll edəcək. Qardaş Türkiyə düşmənlərinin Azərbaycanda yeri olmamalıdır. Bu cür ünsürlərin hələ də olması yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salır. Qardaş Türkiyəyə sadiq kürd qardaşlarımızın başımız üstündə yeri var. Amma PKK-çılar ölkəmizdən uzaqlaşdırılmalıdır. Fikrimcə, bunun üçün DTX ölkədaxili irimiqyaslı əməliyyat aparmalıdır. Kürd kökənli Türkiyə vətəndaşları ötən əsrin 90-cı illərində Azərbaycana çoxlu sayda təşrif buyurdular. Bunların əsas işi biznes idi. Kürdlər arasında kifayət qədər PKK-çı da Azərbaycana gəldi. PKK-nın sərsəm "Böyük Kürdüstan" xəritəsində Azərbaycan əraziləri olan Kəlbəcərlə Laçın da yer alır. Hələ ötən əsrin 60-cı illərində Moskvanın planı var idi ki, Azərbaycanda kürd muxtariyyəti qursunlar. Bütün bunlardan irəli gələrək söyləmək olar ki, PKK təkcə Türkiyəyə deyil, Azərbaycana da potensial təhlükədir. Hazırda bu terror təşkilatı tarixinin ən çətin günlərini yaşayır. Türkiyə hərbi qüvvələri daxildə, Suriya və İraqda bu terror təşkilatına sarsıdıcı zərbələr endirir. Bu məqamdan istifadə edib Azərbaycan da PKK-nı öz daxilində bitirməlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

**Məlum olduğu kimi, iyunun 27-də prezident mədəniyyət nazirinin müavinlərinin və nazirlik yanında dövlət xidmətinin rəisinin təyin olunması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Rafiq Yasin oğlu Bayramov, Sevda Yusif qızı Məmmədəliyeva mədəniyyət nazirinin müavinləri, Zakir İmran oğlu Sultanov isə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi təyin edilib. Vaqif Əliyev isə mədəniyyət nazirinin birinci müavini təyin olunub. Lakin bundan əvvəl nazir müavini olmuş Ədalət Vəliyev əvvəlki vəzifəsinə təyinat almayıb.**

# Ədalət Vəliyev niyə nazir müavini ola bilmədi - müəmma

## Mədəniyyət Nazirliyindən "Bu suala cavab vermək iqtidarında deyilik" deyirlər; sabiq nazir müavini isə telefonlara cavab vermir

Qeyd edək ki, Ədalət Vəliyev 2006-cı ildən məlum sərəncam imzalananadək nazir müavini vəzifəsində çalışıb. 12 illik vəzifəsi müddətində o, nazirliyin "Fəxri Mədəniyyət İşçisi" adına və döş nişanına, o cümlədən 2013-cü ildə prezident tərəfindən "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülüb.



Bütün bunlara baxmayaraq, Ədalət Vəliyevin təyinatdan kənarda qalması suallar doğurub. Maraqlıdır, Ədalət Vəliyev niyə nazir müavini olmadı?

"Bu, prezidentin səlahiyyətində olan məsələdir. Buna görə nazirlik bu suala cavab vermək iqtidarında deyil". Nazirlikdən "Yeni Müsavat"ın sorğusuna belə cavab verilib.

Sosial şəbəkələrdə yayılan məlumatlara görə, sabiq nazir müavininin adı dəfələrlə mətbuatda qalmaqallarda hallandığı üçün işdən çıxarılıb. Digər versiyalara görə isə sabiq nazir müavini səbirsizliklə yaxın günlərdə baş tutacaq yeni təyinatını gözləyir.

Məsələ ilə bağlı əməkdaşımız Ədalət Vəliyevin mövqeyini öyrənməyə çalışıb. Lakin sabiq nazir müavini telefon zənglərini cavabsız qoyub.

Mədəniyyət Nazirliyi Aparatının yeni təsdiq edilən strukturunda aparatın rəhbəri və şöbə müdiri vəzifələrinə kadr təyinatları da həyata keçirilib. Bu barədə modern.az-a nazirliyin mətbuat xidmətindən məlumat verilib. Nazirin müvafiq əmrinə əsasən, Fikrət Köçəri oğlu Babayev nazirlik aparatının yeni rəhbəri təyin edilib. Bundan əlavə, yeni yaradılan Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin müdiri vəzifəsi Vüqar Şixəmmədova həvalə edilib.

Nazirliyin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri vəzifəsinə İntiqam Hümbətov təyin edilib. Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri isə Aslan Cəfərov təyin olunub.

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# REAL üzvü 30 sutkalıq həbsindən danışdı

## Azər Qasımlı: "Vaxtımı kitab oxumaqla keçirirdim"



**Respublikaçı Alternativ Partiyasının (REAL) Məclis üzvü Azər Qasımlı azadlığa çıxıb. A.Qasımlının barəsində seçilən inzibati həbs müddəti başa çatıb. Xatırladaq ki, REAL üzvü barəsində İnzibati Xətalar Məcəlləsinin 535-ci maddəsi ilə ( Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) ittiham irəli sürülmüşdü. Məhkəmənin qərarı ilə A. Qasımlı ötən ayın 29-u 30 sutka müddətinə azadlıqdan məhrum edilmişdi.**

Azər Qasımlı BBC News Azərbaycancaya danışıb. O deyib ki, 30 günlük həbs cəzası ilə bağlı yerli məhkəmələrin qərarlarından apelyasiyasını Avropa Məhkəməsinə göndərəcək. Azər Qasımlı deyib ki, həbsinin siyasi fəaliyyətinin məhdudlaşdırılması məqsədi güddüyünü hesab edir. "Düşünürəm ki, həbsim ilk növbədə bununla, 28 mayda keçirdiyimiz tədbirlə bağlı idi.

Buna baxmayaraq, bu məsələ ilə deyil, tamamilə başqa məsələ ilə bağlı mənə 30 sutkalıq inzibati həbs cəzası verdilər, guya mən yolda gedərkən söyüş söymüşəm. Heç kəsi söyməmişəm, nə polisi, nə kənardakıları, nə də telefonda kimisə söymüşəm. Amma məsələ ondadır ki, həmin iddia edilən 14:30 saatında, ümumiyyətlə, başqa yerdə olmuşam. Yəni həmin saatda bayırda olmamışam".

**"Sonradan rəsmilər bildiriblər ki, orada razılaşdırılmamış aksiya keçirilməsinə cəhd göstərilib" sualına gəlincə, A.Qasimov bunları deyib:** "Bu, yanlışdır. Mən bunu Baş Prokurorluqda da bildirdim ki, əslində biz hər hansı bir aksiya keçirmək fikrində deyildik." O deyib ki, nə Baş Prokurorluqda, nə polis idarəsində, nə də ki, inzibati həbs çəkdiyi yerdə hər hansı bir ciddi təzyiq olmayıb. "Məhdudiyyət ilk ərəfədə oldu, dörd gün ərzində nə zəng etmək, nə yaxınlarla görüşmək, nə də vəkillə görüşmək imkanı yaradıldı. Təzyiq kimi bunu qeyd edə bilərəm. Amma ondan sonra vəkilimlə, həyat yoldaşım və qardaşımla görüşmək imkanım oldu. Hətta hər gün evə, həyat yoldaşıma və anama zəng edirdim. Sonra problem olmadı. Vaxtımı kitab oxumaqla keçirirdim".

# Fədayə Laçının işi məhkəməyə göndərilir

## Digər 12 nəfərin işi üzrə başlanmış cinayət işinin istintaqı yekunlaşıb

**Bakıda məhbusların nəzarət altından qaçmasında təqsirləndirilərək həbs edilən müğənni Fədayə Laçın, Penitensiar Xidmətin qarovul rəisi Ceyhun Səmədov və digər 11 nəfərin işi üzrə başlanmış cinayət işinin istintaqı yekunlaşıb. Bu barədə "Trend"ə C.Səmədovun vəkili Vilayət Nadirov məlumat verib.**



Vəkil bildirib ki, işi aparan müstəntiq təcridxanada təqsirləndirilən şəxslərlə görüşüb və cinayət işinin istintaqının yekunlaşdığını elan edib: "Müstəntiq cinayət işinin istintaqının yekunlaşdığını elan etdi. Yaxın günlərdə cinayət işi tanış olmaq üçün təqsirləndirilən şəxslərə təqdim ediləcək, daha sonra isə iş Bakı Ağır Cinayətlər Məhkəməsinə göndəriləcək".

Qeyd edək ki, 23 oktyabr 2017-ci il tarixdə Bakı-Astara-Bakı planlı dəmir yolu qarovulu ilə xüsusi təyinatlı vaqonda Bakı şəhərinə etap olunan xüsusilə ağır cinayətlərdə təqsirləndirilməklə həbs edilmiş Etibar Ələkbər oğlu Məmmədov və Əli Rasim oğlu Ağami Biləcəri qəsəbəsi ərazisində müşayiət altından qaçıblar.

Ədliyyə Nazirliyi və Baş Prokurorluğun yaydığı birgə məlumatda qeyd olunub ki, bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən dərhal Əməliyyat Qərargahı yaradılaraq həbsdən qaçmış şəxslərin digər hüquq-mühafizə orqanları ilə əlaqəli surətdə axtarışı və yaxalanması üzrə bütün zəruri tədbirlər görülüb. Hadisənin baş verməsini yaradan şərait və səbəblərin araşdırılması üçün hərtərəfli prinsipial xidməti yoxlama aparılıb.

Xidməti yoxlamanın ilkin nəticələrinə əsasən vəzifə borclarını lazımınca yerinə yetirmədiklərinə görə ədliyyə nazirinin əmri ilə Penitensiar Xidmətin Konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayev və taborun qərargah rəisi vəzifəsini icra edən, ədliyyə mayoru Hikmət Sadıqov ədliyyə orqanlarından xaric edilib, taborun 2-ci konvoy bölüyünün komandiri, ədliyyə kapitanı Ruslan Zeynalov, 3-cü bölüyün komandiri, ədliyyə kapitanı Rza Xankişiyev və qərargah rəisinin konvoy xidməti üzrə baş köməkçisi, ədliyyə kapitanı Rakif Məmmədov tutduqları vəzifədən azad olunublar.

Bundan əlavə, həbs edilmiş şəxslərin vaqonda müşayiətini bilavasitə təmin edən qarovul rəisi Ceyhun Səmədov və digər 7 əməkdaş ədliyyə orqanlarından xaric edilib, Penitensiar Xidmətin bir çox digər aidiyyəti məsul işçiləri ciddi intizam məsuliyyətinə cəlb olunublar.

Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 304.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud mühafizə altından qaçma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmaqla istintaq qrupu yaradılıb, dərhal təxirəsalınmaz istintaq hərəkətləri aparılıb. Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin ekspertlərinin iştirakı ilə hadisə yerinin müfəssəl müayinəsi həyata keçirilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

İlkin istintaqla müəyyən edilib ki, qarovul heyəti tərəfindən həbs edilmiş şəxslərin etapı zamanı E.Məmmədov və Ə.Ağamiyə münasibətdə "Həbs edilmiş şəxslərin müşayiət edilməsinə dair Qaydalar"ın tələblərinə riayət olunmayıb və bu da fövqəladə hadisə - təqsirləndirilən şəxslərin həbsdən qaçması ilə nəticələnib.

Bununla əlaqədar qarovul rəisi C.Səmədov, qarovul rəisinin köməkçiləri Fuad Hacıyev və Tural Platxanov Cinayət Məcəlləsinin 308.2-ci maddəsində nəzərdə tutulan əmələ görə cinayət məsuliyyətinə cəlb olunub və barələrində həbs-qətimkan tədbiri seçilib.

Faktla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində başlanılan cinayət işi üzrə F.Məmmədova (Fədayə Laçın) və Günay Atakişiyeva da təqsirləndirilən şəxs qismində cəlb olunaraq Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Türkiyə və Azərbaycan Qarabağda antiterror əməliyyatı keçirə bilər

## Bakıdakı paraddan sonra Azərbaycan növbəti hərbi təlimlərə qərar verdi; erməni ekspertləri həyəcan təbili çalır; **politoloq:** "Silah və hərbi texnika arsenalımızla bağlı informasiyalar Ermənistan cəmiyyətində ciddi narahatlıq yaradıb..."

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyulun 2-dən 6-dək Azərbaycan ordusunun müxtəlif qoşun növləri, qisimləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı təlimləri keçiriləcək. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**




Təlimlərə 20 min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq. Təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqları yerinə yetirəcək. Kəskin kəsişən ərazi və mürəkkəb dağlıq relyef, həmçinin radioelektron mübarizə şəraitində keçiriləcək təlimlərdə birləşmə və hərbi hissələrin qarşılıqlı fəaliyyəti, qoşunların və atəş vasitələrinin idarə olunması, eləcə də şərti düşmənin müxtəlif diversiya fəaliyyətlərinə qarşı taktiki epizodlar icra ediləcək. Məlumatda o da deyilir ki, təlimlərdə Azərbaycan ordusunun silahlanmasına yeni qəbul edilmiş ən müasir silah növlərinin və hərbi texnikanın tətbiqi ilə müxtəlif poliqonlarda döyüş atışlarının keçirilməsi nəzərdə tutulub.

İyunun 26-da keçirilən möhtəşəm hərbi paraddan sonra genişmiqyaslı hərbi təlimlərin keçirilməsi işğalçı Ermənistanı vahiməyə salıb. Əslində bu vahimə Nikol Paşinyan hökumətində hərbi parad hazırlığı dövründə yaranmışdı. Hökumətə rəhbərliyi ələ aldığı ilk günlərdə Qarabağa səfərlər edən, hətta oğlunu işğal altındakı torpaqlarda hərbi xidmətə yollayan Paşinyan çox keçmədi ki, səhvini anladı və çəkingən mövqe nümayiş etdirməyə başladı. Paşinyan onu da deyib ki, Ermənistan müharibəyə ilk başlayan tərəf olmayacaq.

Təbii ki, status-kvonun saxlanılması Ermənistan üçün ideal vəziyyət vəd edir. Ancaq Azərbaycan torpaqlarının əbədi olaraq işğalda qalması ilə razılaşa bilməz və odur ki, bir gün hərbi əməliyyat qərarının veriləcəyi şübhəsizdir. Azərbaycan ordusunun yaranmasının 100 illiyi münasibətilə Bakıda iyunun 26-da keçirilmiş hərbi parad Ermənistanın ekspert çevrələrində ciddi təşviş yaradıb. Virtualaz.org xəbər verir ki, erməni ekspertlər üçün xüsusən SOM-1 qanadlı raketi xoşagəlməz sürpriz olub. "Ermənistanın hərbi sənaye kompleksi" bloqunun aparıcısı **Samvel Aqbabyan** deyib ki, Azərbaycan milyardlarla dolları müasir silahlara və hərbi texnikaya parad üçün xərcləmir. Bu silahlar Qarabağ probleminin hərbi yolla həll edilməsi üçün alınır. Aqbabyana görə, Azərbaycanın operativ-taktiki və tank əleyhinə raket kompleksləri, raket-artilleriya silahları və zərbə dronları Ermənistan və Dağlıq Qarabağ üçün xüsusi təhlükəsizlik təhdidi yaradır. "Bu silahlar yüksək texnologiyalara əsaslandığına və uzaq məsafədən hədəfləri vurduğuna görə Azərbaycan silahlı qüvvələrinə imkan verəcək ki, birbaşa atəş təmasına girmədən effektiv hərbi əməliyyatlar aparsın" - Aqbabyan "Kavkazskiy uzel" portalına açıqlamasında deyib.

**Erməni ekspert xüsusən diqqəti Bakıdakı paradda ilk dəfə nümayiş etdirilmiş SOM-B1 aviasiya operativ-taktiki raketinə cəlb edib.** "Hələlik bu raketin Azərbaycan HHQ-nin hansı aviasiya platformasından tətbiq ediləcəyi aydın deyil. MiQ-29 və Su-25 qrıcıları, döyüş təyyarələri mənə məlum olduğu qədər SOM-B1 raketləri üçün uyğunlaşdırılmayıb. Amma belə hesab etməyə əsas var ki, Azərbaycanın Su-25 döyüş təyyarələri Türkiyədə SOM-B1 qanadlı raketlərini daşımaq üçün modernləşdirilib" - erməni ekspert deyib. Samvel Aqbabyana görə, Qarabağda erməni qüvvələri optik videomüşahidə sistemləri ilə təmin olunduğu üçün 2016-cı ilin aprelində olduğu kimi qəfil hərbi əməliyyatlar ehtimalı azdır. Ona görə də demək olar ki, irimiqyaslı müharibə yetişir və bu müharibə kütləvi raket-artilleriya, aviasiya zərbələri ilə müşayiət olunacaq.

Digər hərbi analitik Leonid Nersisyan isə deyib ki, Bakıda SOM-1B raketinin nümayiş etdirilməsi Ermənistan üçün "xoşagəlməz xəbər" oldu. Çünki bütün qalan silahlar paraddan əvvəl nümayiş etdirilmişdi: "250 kilometr mənzilli qanadlı raket, üstəlik, olduqca aşağı hündürlükdən uçan raket Ermənistan üçün xoşagəlməz xəbər oldu".

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, N.Paşinyan Azərbaycanın hərbi əməliyyatlara başlayacağından və bu əməliyyatların onun siyasi ölümünü yaxınlaşdıracağından narahatdır:** "Azərbaycan ordusunun Naxçıvanda həyata keçirdiyi hərbi əməliyyatdan sonra yaranmış vəziyyətlə bağlı yayımlanan videomateriallar, hərbi parada hazırlıq öncəsi silah və hərbi texnika arsenalımızla bağlı informasiyalar Ermənistan cəmiyyətində ciddi narahatlıq yaradıb. Digər tərəfdən, Paşinyan ordunu Qarabağ klanından təmizləmək və özünə tabe etdirmək üçün hərəkətə keçib. Baş verənlər Paşinyana siyasi divident gətirmək üçün düşünülsə də, orduya olan etimadı daha da azaldıb. Klanlararası mübarizə ordu müstəvisinə keçib. Belə bir vəziyyətdə istənilən lokal hərbi əməliyyat Ermənistanı çıxılmaz vəziyyətdə qoya, ordudakı düşkün əhval-ruhiyyəni, ziddiyyətləri daha qabarıq şəkildə ortaya çıxara bilər. Paşinyanın vurnuxmasının səbəbi də budur".

**E.Mirzəbəylinin qənaətincə, mövcud vəziyyətdə Ermənistana savaş heç bir halda sərf etmir:** "Bunun nəticəsi kapitulyasiya ola bilər. Rusiyaya gəldikdə isə Moskvanın bu məsələ ilə bağlı mövqeyi açıq deyil. Görünən odur ki, Moskvanın məqsədi münaqişəni həll etməkdən daha çox Paşinyanı ram etmək, yaxud onu və Ermənistan cəmiyyətini cəzalandırmaqdan ibarətdir. Bu cəzanın sərhədlərinin isə hara qədər ola biləcəyini söyləmək çox çətindir. Amma bütün hallarda Rusiyanın məqsədi problemin tam və ədalətli həlli deyil. Moskvanın davranışlarından onun Cənubi Qafqazdakı təsir və təzyiq mexanizmlərini təhvil verməyə hazırlaşdığı sezilmir".

**"Hər an döyüş başlana bilər. Nəinki Ermənistan, hətta başqa dövlətlər də bilməlidir ki, Azərbaycan həm Dağlıq Qarabağ ərazisini, həm də Qərbi Azərbaycanı qısa müddətdə işğaldan azad etməyə hazırdır. Yəni uzun-uzadı döyüş əməliyyatları olmayacaq. Sadəcə, iki tabor o vaxt 2016-cı ildə əks həmlə edərək düşməni sarsıtmağı bacardı. Buna görə düşmən ordusunda çox sayda vəzifəli şəxs vəzifəsindən azad olundu, kəşfiyyat pis günə düşdü, rabitə heçə endi. Azərbaycan birləşmələri faha böyük qüvvə ilə əks-hücuma keçsə, Ermənistan ciddi sarsılacaq. İrəvan üçün bu, fəlakət olacaq". Bu fikirləri isə ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov axar.az-a deyib.**

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda qardaş Türkiyənin həm qırıcıları, həm də 100 nəfərlik xüsusi təyinatlı əsgərinin iştirakı sosial şəbəkədə maraqlı müzakirənin səbəbinə çevrilib. Paraddan sonra iki ölkənin ittifaq dövləti yaratması ilə bağlı təkliflər səsləndirilib. Məsələ ilə bağlı danışan Yaşar Aydəmirov bildirib ki, Türkiyənin həm qırıcılarının, həm də hərbçilərinin paradda iştirakını çox yüksək qiymətləndirir:** "1918-20-ci illərdə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa idi. Orada Azərbaycan diviziyaları da var idi. Onlar birlikdə daşnak-bolşeviklərə qarşı vuruşub Bakını azad etdilər. Türkiyə parada qatılması ilə göstərdi ki, biz yenə də birlikdəyik və bir yerdə vuruşmağa hazırıq".

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Xətai Baxışov isə Ali Baş Komandan İlham Əliyevin Ulu öndərin "bir millət, iki dövlət" ifadəsini Türkiyə ilə bağlı siyasətində əsas prioritet istiqamət kimi götürdüyünü bildirib:** "Bunun nəticəsidir ki, türk qırıcıları və əsgərləri Bakıdakı paradda Azərbaycan əsgəri ilə birgə iştirak edir". Ekspert vurğulayıb ki, Türkiyə bu paradda yüksək səviyyədə iştirakı ilə dünyaya bir mesaj verdi: "Türkiyə Azərbaycana qardaş dövlət olduğunu bir daha nümayiş etdirdi".

Türkiyə və Azərbaycan hərbçilərinin hərbi paradda birgə iştirak etməsi işğalçıya ciddi mesajdır. Bu, həm də o anlamı verir ki, günün birində torpaqlarımızı düşmən tapdağından birgə əməliyyatlar nəticəsində azad edə bilərik.

**"Azərbaycan Türkiyə ilə birgə Dağlıq Qarabağda əməliyyat keçirməyə razıdır". Bunu isə Türkiyənin təqaüddə olan general-polkovniki İhsan Başbozkurt açıqlamasında deyib ("A24.az"). O, Türkiyənin müdafiə sənayesindən danışan zaman yeni istehsal olunan ATAK helikoperinin Pakistanla yanaşı qardaş ölkə Azərbaycana da satılacağını qeyd edib. Azərbaycanın adını çəkərkən general-polkovnik daha bir məlumatı diqqətə çatdırıb:** "Qardaş Azərbaycanla bağlı bu gün çox gözəl bir xəbər oxudum. Bilirsiniz ki, terror təşkilatı PKK hazırda Ermənistanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində yerləşdirilir. Qardaş ölkə bu bölgədə terror təşkilatlarını yox etmək üçün birgə əməliyyat keçirə bilərik deyir. İnşallah, o günlər yaxındır, o günləri də görəcəyik".

Hər halda, Türkiyə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini prioritetləri sırasına daxil edib. Üstəlik, Suriya və İraqdan sıxışdırılan PKK-nın Qarabağa sığınması ərazilərimizdə birgə antiterror əməliyyatlarının aparılmasını qaçılmaz edə bilər.

**Bu ilin yazında Bakıdakı VI Qlobal Bakı Forumunda iştirak edən Türkiyənin baş naziri Binəli Yıldırım "Yeni Müsavat"ın əməkdaşının "Afrin əməliyyatından sonra qardaş ölkənin hərbi qüvvələrinin Azərbaycan ordusu ilə birlikdə işğal altındakı Qarabağ torpaqlarında erməni işğalçılarına və nəzarətsiz ərazidə yerləşdirilmiş PKK-çılara qarşı birgə hərbi əməliyyat keçirilə bilərmi" sualına cavabında belə demişdi:** "Əgər dost və qardaş Azərbaycana buradan başqa bir təhdid yönələrsə, yaxud Türkiyəyə bu ərazilərdən bir terror təhdidi yönələrsə, qarşılığı mütləq olacaq". Proseslər cənab Yıldırımın dediyi hədəfə aparır. Ermənistan həm də bundan narahatdır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY




# Bakıda Afrika istiləri-rəsmi

## Nazirlik: "...İş dayandırılmalıdır"

**"Hazırda Azərbaycanda müşahidə olunan anomal istilərin səbəbi Şimali Afrikadan hərəkət edən isti hava dalğalarıdır". Bunu "Report"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova deyib.**

Onun sözlərinə görə, isti hava kütləsinin ölkə ərazisinə daxil olması nəticəsində artıq bir neçə günür ki, ölkə ərazisində günəşli və yağmursuz hava şəraiti müşahidə olunur: "Anomal isti hava şəraitinin iyul ayının 2-dək davam edəcəyi proqnozlaşdırılır. Havanın maksimal temperaturu 35-40, Mərkəzi Aran rayonları və Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində 41 dərəcə isti olacaq".

Azərbaycanda anomal istilərə görə açıq şəraitli yerlərdə iş dayandırıla bilər. Maraqlıdır, səhər açılandan gün batana qədər açıq havada işləyən fəhlələrlə bağlı hansı qərar verilib?

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən musavat.com-a verilən məlumata görə, Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə müraciət edərək bildirir ki, havanın temperaturunun +41 dərəcə selsidən çox olduğu hallarda işçilərin həyat və sağlamlığının qorunması üçün əmək qanunvericiliyinə əsasən zəruri tədbirlərin görülməsi təmin edilməlidir.

Belə ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu + 41 dərəcə selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır. Qeyd olunan hallarda işçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Həmçinin məcəlləyə əsasən, iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməli, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməlidir.

Dövlət Əmək Müfəttişliyi Xidməti işçilərin həyat və sağlamlığının qorunması məqsədilə əməyin mühafizəsi tədbirlərinin görülməsinin, o cümlədən havanın temperaturunun +41 dərəcə selsidən çox olduğu hallarda bu məqsədlə zəruri işlərin aparılmasının qanunvericiliklə işəgötürənlərin əsas vəzifələrindən olduğunu diqqətə çatdırır.

Anomal istilərdən söz düşmüşkən, müdafiə naziri Zakir Həsənov əmrinə əsasən, döyüş hazırlığı məşğələləri səhər saat 11.00-dək və saat 17.00-dan sonra keçirilir, hərbi qulluqçulara günorta vaxtı istirahət verilir (APA).

Bakıda bəzi yerlərdə kondisionerli avtobuslar, bəzi yerlərə isə nəinki kondisionersiz, hətta istismar müddətini bitirmiş bərbad avtobuslar sərnişinlərə xidmət göstərir. Bu cür avtobuslarda sərnişinlərlə yanaşı sürücü də əziyyət çəkir. Anomal istilərin olduğu bu günlərdə isə vəziyyət dözülməzdir.

**Bakı Nəqliyyat Agentliyinin (BNA) İctimaiyyətlə əlaqələr şöbəsinin sektor müdiri Mais Ağayevin sözlərinə görə, hazırda Bakı şəhərində müntəzəm marşrut xətləri üzrə avtobusların sayı 2100-ə qədərdir:** "Bunlardan yalnız 400-dən bir qədər artığında standartlara cavab verən sərinləndirmə sistemləri mövcuddur. Qalanlarında isə bu sistem, ümumiyyətlə, yoxdur. Bildiyiniz kimi, müntəzəm sərnişindaşıma fəaliyyət göstərən daşıyıcılar qarşısında avtobusların yenilənməsi, yəni yeni nəqliyyat vasitələrinin alınıb gətirilməsi ilə bağlı ciddi tapşırıq qoyulub. Yeni alınacaq avtobuslar üçün də müəyyən edilmiş tələblər var və tələblərin biri də məhz nəqliyyat vasitəsində standartlara uyğun sərinləndirmə sistemlərinin olması ilə bağlıdır. Hazırda avtobus bazasının yenilənməsi ilə bağlı ciddi işlər görülməkdədir".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**



# Abutalıbovun batırdığı Bakının baş planı

## Müvafiq qurumlar illərdir bildirirlər ki, Bakının baş planı hazırdır, amma indi məlum olur ki...

**Prezident İlham Əliyev Bakı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, Bakı şəhərinin baş planının hazırlanması işinin təşkili üçün nüfuzlu beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 4 milyon manat ayrılıb.

Maraqlısı isə budur ki, indiyə qədər açıqlama verən müvafiq qurumlar bildirirdilər ki, Bakının baş planı hazırdır. Ötən ay məlumat yayılaraq bildirilmişdi ki, bu planda 2035-ci ilədək inkişaf nəzərə alınıb: "Bakının indidəyədək sayca beşinci baş planı olan layihədə ciddi tamamlama işləri görülüb. Prosesə beynəlxalq ekspertlər də qoşulub".

Qeyd olunurdu ki, 2015-2016-cı illər ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında paytaxtın bütün inzibati ərazisini əhatə edən "Bakı şəhərinin ərazidən İstifadə və Zonalaşdırma Planı" layihəsi hazırlanıb və bir çox dövlət təşkilatları ilə razılaşdırılıb.

Hələ 2017-ci ildə məlumat yayılaraq bildirilmişdi ki, Bakının baş planı demək olar ki, hazırdır. Görünür, yayılan məlumatlar, sadəcə olaraq, söz yığını olub...


Hacıbala Abutalıbov

Bakı şəhərinin baş planının gecikməsində günahkar kimi Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbovun da adı çəkilir. Ekspertlər bildirirlər ki, baş planla bağlı əsas iş Bakı Şəhər İcra Hakimiyyətinin üzərinə düşür. İcra hakimiyyətinin Memarlıq və Şərhərsalma Baş İdarəsi var ki, bu işə də həmin qurum baxmalıdır.

**"Yeni Müsavat"a danışan 1971-1986-cı illərdə Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov söyləyib ki, əvvəlcədən məlum idi ki, Bakının, sadəcə olaraq, mərkəzi eskizi hazırlanıb:** "Abşeron yarımadası isə vahid ərazi kimi işlənməyib. Bakının da baş planı hər zaman Abşeron yarımadasını əhatə edən konsepsiya ilə bərabər olmalı idi. Bütöv bir ərazi kimi bu işi son zamanlar görən olmayıb. Vaxtilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri işləmiş Abbas Ələsgərov planı mənə göstərmişdi. O zaman gördüm ki, planda bütün ərazi nəzərə alınmayıb. Hiss olunurdu ki, kimsə bu işin yarımçıq qalmasında maraqlıdır. Bu işi aparmaq üçün maraqlı olan şəxs lazımdır. Bu gün Bakıda elə bir adam yoxdur. Bunun da səbəbi ondan ibarətdir ki, işdən icra hakimiyyətinin Memarlıq və Şərhərsalma Baş İdarəsi kənarda qalıb. Bu işi onlar aparmalıdır. Orada baş memar da zəifdir, icra başçısı isə hazırda, ümumiyyətlə, təyin edilməyib. Ona görə də işlər ləngiyir. Burada əlbəttə ki, Hacıbala Abutalıbovun da günahı var. Abutalıbov uzun müddət Bakının icra başçısı oldu, ancaq bir dənə baş planı ortaya qoyub, axıra çatdıra bilmədi. Heç olmasa bunu etsəydi, adına nə isə olardı. Axırıncı baş plan hazırlanan zaman bir neçə ittifaq institutları iştirak etdilər. Ukrayna, Moskva institutu və digər müvafiq komitələrin iştirakı ilə müzakirələr getdi. Böyük alimlər gəlib, o zaman baş planı hazırladılar. İndi isə heç bir müzakirə aparılmadan, kimsə eskizi hazırlayıb, ortaya qoyur ki, Bakının mərkəzini bunlar belə görürlər. Problemlər ortaya qoyulmalı, yeni konsepsiya irəli sürülməlidir ki, bu problemlər hansı yolla həll olunsun. Ancaq dediklərimin heç biri olmadığı üçün yarımçıq sənəd ortaya çıxıb. Yaxşı ki, cənab prezident bundan məlumat alıb və sərəncam imzalayıb ki, işi başa çatdırmaq lazımdır. Görünür ki, cənab prezidentə də vaxtında düzgün məlumat verilməyib ki, guya baş plan hazırdır".

**Ekspert bildirib ki, hələ 2005-ci ildə müraciət hazırlayaraq, Bakıda olan 15 problemi qeyd edib:** "Lakin həmin problemlər hələ də tam həll olunmayıb. Məsələn, elektrik təminatını həll edilmiş saymaq olar. Ancaq su, kanalizasiya problemi həll olunmamış, qazlaşma problemi isə qismən həll edilib. Baxırsan ki, mərkəzin özündə də qaz problemi yaranır. Çünki magistral həll edilməyib. İntensiv tikinti gedib, tələb artıb ancaq bu tələbə uyğun olaraq kommunikasiya xətləri çəkilməyib. Bundan əlavə, ekoloji problemlər də var. Abşeronu hər il su basır. Bütün bunların səbəbi kanalizasiya sisteminin olmamasıdır. Baxırsan ki, deyirlər buna səbəb yeraltı sulardır. Ancaq Abşeronda heç bir yeraltı su yoxdur. Subasmaların səbəbi kanalizasiya problemidir. Prezidentin sərəncamından belə görünür ki, ilkin olaraq 4 milyon vəsait ayrılır. Gərək problem tam hazır olsun ki, nə qədər vəsaitin lazım olduğu dəqiq şəkildə bilinsin. İşi Respublika Dövlət Şəhərsalma və Arxitektura Komitəsi aparacaq. Ancaq bu, düzgün deyil. Çünki problem şəhərindir və şəhərin problemi ilə Bakı Şəhər İcra Hakimiyyəti nəzdində olan Memarlıq və Şərhərsalma Baş İdarəsi məşğul olmalıdır. Kənardan olan təşkilat məlumatları necə toplayacaq? Bütün məlumatlar şəhərin arxivlərində cəmlənib. Əvvəlcən bu düzgün istiqamət almadığı üçün hazırkı yarımçıq vəziyyətə görə kimin tam olaraq məsuliyyət daşıdığını söyləmək də çətindir. Çünki məsuliyyət daşıyan adamlar kənarda qalıb. Onu da deyim ki, Bakının ən böyük problemlərindən biri də "Şıxov" çimərliyidir. Oranın əhalisi nə üçün başqa yerə çimərliyə getməlidir? Ora 50-60 il öncə çox təmiz çimərlik idi. İndi isə şəhərin yarısından çoxunun kanalizasiya suları ora axıdılır. Nəticədə bu çimərlik məhv edilib. Kanalizasiya xətləri çəkilməli, problem həllini tapmalıdır. Deyim ki, bununla bağlı layihə də var. Lökbatanda sutka ərzində 400 min kub suyu təmizləyə bilən qurğunun layihəsi mənim işlədiyim dövrdə təsdiq edilib. Bu obyekt sovet hökumətinin də qərarına salınmışdı. İndi isə belə bir proyektdən xəbəri olan adam yoxdur. "Şıxov" çimərliyindəki problem həllini taparsa, bu, turistlərin də cəlb edilməsi baxımından əhəmiyyətli olar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018



# Rusların mundìalda bəyəndìyì müsəlman- Nataşanın Azarı...

## Belçika millisinin dünya çempionu ola biləcəyi haqda proqnozlar artır; komandanın ulduz futbolçusu haqda yazmağın bir neçə səbəbi...

**Rus şərhçilər onun oyununu çox bəyənirlər. Top onun ayağına gələn kimi adını çəkirlər, “bax, bax necə aldatdı”, “bax, necə müdafiəçiləri keçdi” deyib onu öyürlər. Ümumiyyətlə, Rusiya millisinin oyunlarını şərh edərkən aşırı vətənpərvərlik kimi hay-həşirləri olmasa, bir də Almaniyanın məğlubiyyətinə Berlini yenidən alıbmış kimi sevinməkləri olmasaydı, şərhçilərinə obyektiv “4" qiymət vermək olar. Şərhçi ”şkola"sı olub və davam edir...**

Rusların çox təriflədiyi Belçika millisinin oyunçusu Eden Azar Rusiya mundialında İngiltərə ilə dünən axşamkı oyunadək cəmi iki qol vurub. Onun haqqında “Avro-2016"da da çox danışılırdı. Təəssüf ki, hələ bu çempionatda ulduzu parlayan oyunçu yoxdur. Bombardir hələ ən yaxşı demək deyil axı..

Eden Azar haqda ötən Avropa çempionatında da yazmışdım. Onun oyunu doğrudan da əsl peşəkar oyunudur. Baxmayaraq ki, “Çelsi”nin və Belçika yığmasının yarımmüdafiəçisi haqda belə erkən yazmağın düşər-düşməzi də ola bilər. Çoxları Belçikanı çempion kimi görür artıq... Tələsməmək lazım...

**Nəsillikcə futbolçu**

Eden Azar ( Eden Hazard) 1991-ci ilin 7 yanvarında Belçikanın La-Luver şəhərində anadan olub. Onun ailəsi futbola yad deyil, əksinə, çox bağlı adamlardır. Müsəlman kökənli anası Katrin Belçikada futbol komandasında oynayıb. Atası Terri karyerasının əsas hissəsini Belçikanın ikinci divizionunda oynayan “Luveros” komandasında keçirib. Anası isə qadınlar üzrə birinci divizyonda hücumçu mövqeyində oynayıb. Edenə üç aylıq hamilə olarkən isə komandadan ayrılıb. Atası kökənli belçikalı olsa da, anası mərakeşlidir. Bu səbəbdən də Edenin müsəlmanlığı qəbul etdiyi deyilir.

Evləri La-Luver şəhərində stadionun 10 metrliyində yerləşdiyindən onların oyun yeri də yaşıl meydan olub. Eden hələ 4 yaşı olarkən yerli “Royyal Stad Braunia”da top qovmağa başlayıb. Klubun məşqçisi balaca Azara xüsusi bacarıqlarına görə “anadan futbolçu kimi doğulub” deyibmiş. Burada səkkiz il oynayan Eden “Tyubiz”ə keçir. 14 yaşı olarkən Eden Fransanın “Lill” klubunun diqqətinə düşür. Valideynləri çox düşünmədən “Lill”dən gələn təklifi qəbul edirlər və qonşu Fransaya köçürlər.

Eden Azar iki il “Lill”in akademiyasında oynayıb və 2007-ci ildə-16 yaşında ilk dəfə əsas heyətdə meydana çıxıb. Komandada oynadığı ilk sezonda Azar mövsümün ən yaxşı gənc futbolçusu seçilib. Bu, Fransa çempionatında ilk dəfə idi ki, ən yaxşı oyunçu mükafatını fransız olmayan biri alırdı. 2009-2010-cu il mövsümündə də Azar iki il dalbadal yenə ən yaxşı oyunçu adına layiq görülür. 2011-ci ildə isə İtaliyanın nüfuzlu “Guerin Sportivo” jurnalının keçirdiyi rəy sorğusunda Eden “Avropanın ən yaxşı gənc futbolçusu” seçilir.

**“Avropanın Messisi”**

2012-ci ilin iyununda “Lill” də 8 illik karyerasını başa vuran Azar İngiltərənin “Çelsi” klubuna transfer olunub. 21 yaşlı Eden “Çelsi” ilə 30 milyon funt-sterlinq (bəzi mənbələrdə bu rəqəm 40 göstərilir) dəyərində transfer müqaviləsi imzalayır. Belçikalı ulduz Londona gələr-gəlməz İngiltərə Primyer-liqasının Leonel Messisi olmağa hazır olduğunu deyir.

12 avqustda “Çelsi”nin heyətində İngiltərə superkuboku matçında Azar meydana çıxır. Amma onun debütü komanda üçün düşərli olmur, “Çelsi” “Mançestr Siti”yə uduzur. İkinci oyunda “Uiqan Atletik”lə qarşılaşmada belçikalı məhsuldar ötürmə edir və penalti qazanır. Artıq növbəti turda Azar qol hesabını da açır. “Çelsi”də keçirdiyi məhsuldar oyunlardan sonra “Daily Mail” qəzeti onu İngiltərə çempionatının məşhur legionerləri-Erik Kontana, Terri Anri və Denis Berkampla müqayisə edir.

Yarımmüdafiəçi 2013-cü ilin 23 yanvarında İngiltərə kubokunun yarımfinal oyununda etdiyi hərəkətlə ciddi qınağa tuş gəlir. Belə ki, “Çelsi” ilə “Suonsi Siti”nin oyununun sonuna 10 dəqiqə qalmış Azar topu gecikdirib verməyən balaca uşağı vurur. Bu hərəkətinə görə qırmızı kart alır və meydandan qovulur. Azarın hərəkəti ölkədə geniş rezonans doğurur və ona ciddi etirazlar səslənir. Amma bəziləri həmin uşağın doğrudan da oyunu qəsdən gecikdirdiyini iddia edərək Azara dəstək verirlər. 2014-cü ilin 8 fevralında “Nyukasl-Yunayted”in qapısına 3 qol vuraraq “het-trik” edən Edenin hərəkəti unudulur.

**15 yaşında Belçika millisinə gedən yol**

O, Belçika milli komandasını 15 yaşından təmsil edir. 2007-ci ildə 17 yaşlılar arasında Avropa çempionatında Belçikanın heyətində oynayıb. Azar 17 yaşında mili komandanın əsas heyətinə dəvət alıb. 2008-ci ilin 19 noyabrında milli komandada Lüksenburqa qarşı yoldaşlıq görüşündə debüt edir. Amma milli komandanın heyətində ilk qolunu düz üç il sonra-Qazaxıstana qarşı oyunda vurur.

**Nataşanın əri**

Azarın şəxsi həyatı barədə məlumat çox azdır. Çünki o, bəzi ulduz futbolçulardan fərqli olaraq manekenlərlə əyləncəli həyat yaşamır, şəxsi həyatı haqda da danışmağı sevmir. Onun hay-küylü gecə həyatları barədə də eşidən olmayıb. Edenin xanımının adı Nataşadır, amma ruslarla heç bir əlaqəsi yox. Onun ailəsinin Skandinaviya ölkələrinin birindən Belçikaya köçdüyü söylənilir. Nataşanın onun həyatında ilk və hələ ki yeganə qadın olduğu deyilir. Onlar uşaqlıq illərindən tanışdılar və 14 yaşından görüşdükləri söylənilir. Nataşa Eden Fransaya köçdükdən sonra bir müddət Brüsseldə qalıb. Məktəbi bitirdikdən sonra o da Fransaya köçüb və cütlük ailə qurub.

Hazırda belçikalı forvardın iki uşağı var. Böyük oğlu Yannis 2010-cu ildə Azar hələ “Lill”də oynayanda anadan olub. Leo Azar 2015-ci ilin yanvarında anadan olub. Onun ikinci oğlunun doğumu meydanda uşaq vurması ilə bir ərəfəyə təsadüf edib. Bu qalmaqal fonunda onun ikinci oğlunun anadan olması hər şeydən xəbər tutan ingilis mətbuatının gözündən yayınıb. Azarın oğluna Leo adı verməsi ilə də bağlı müəyyən iddialar var. Məsələn, bu adın Leonal Messiylə bağlayanlar var. Leo Azarın artıq ikili vətəndaşlığı var. Həm Belçika, həm də Britaniya...

Eden Azar haqda ən çox dartışılan mövzu isə milliyyəti ilə bağlıdır. Onun müsəlman olduğunu deyənlər bir faktdan daha möhkəm yapışırlar. Belə ki, Azar 2013-cü 17 yaşlılar arasında Avropa çempionatının Fələstin probleminə görə İsraildə keçirilməsinin əleyhinə olub.

“Associated Press”in xəbərində deyilirdi ki, UEFA-ya bununla bağlı müraciəti imzalayan 62 futbolçu sırasında Eden Azarın adı olub. Eden həmin xəbərlərdə türk kimi göstərilirdi. Qeyd olunurdu ki, nə Fransa, nə Belçika çempionatın final mərhələsinə vəsiqə qazanmadıqları halda belə bir müraciəti imzalamaları onların müsəlman kökənləri ilə bağlıdır.

27 yaşlı Eden Azar ötən mövsüm zədə səbəbindən Primyer Liqada yaxşı oyun göstərə bilmədi. Onu bu mundialda Belçika yığmasında dünya çempionluğu gözləyirmi?

❑ **Nazim SABİROĞLU, “Yeni Müsavat”**















**Külli miqdarda dələduzluqda təqsirləndirilən şəxs hakim qarşısına çıxarılıb. Zərərçəkmişlərdən biri deputat oğludur.**

# Deputat oğlunun adı keçən məhkəmədə ilginc faktlar açıqlandı

## "Malı keçirməkdə Həbib kömək edirdi"- Həbib Axundov gömrükdən malı necə keçirib?



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Elnur İbrahimovun cinayət işi üzrə məhkəmə iclası hakim Rahib Salmanovun sədrliyi ilə davam etdirilib.

Məhkəmədə zərərçəkmiş Sabir Ağayev ifadə verib.

O deyib ki, Elnur İbrahimovu 2008-ci ildə sinif yoldaşı Kamil vasitəsilə tanıyıb.

"Kamil mənim sinif yoldaşımdır. O dedi ki, Elnur kartric alveri edir. Restoran və obyektlərinin də olduğunu söylədi. Dedi ki, Bakıya kartric gətirir, gömrükdə də rüsum ödəmədən keçirir. Bakıda 5 manata satılan kartrici mənə 4 manata verirdi. Mən əvvəl ondan nağd pula kartric alırdım. Sonra təklif etdi ki, pul verim mənim də adıma mal gətirsin. Qazancdan da mənə versin. İki dəfəyə pul vermişəm. Ümumilikdə 115 min vermişəm, cəmi 15 mini qayıdıb".

**Suallara cavab verən S.Ağayev qeyd edib ki, istintaqda söylədiyi bəzi fikirlər yazılmadığından təkrar ifadəsinə əlavələr edib.**

"Mən dediklərim yazılmamışdı. Elnur mənə deyirdi ki, bu işdə Kamil və Həbiblə də iş görür. Malı gömrükdən keçirməkdə Həbib ona kömək edirdi. Axır günlərdə Elnur mənə dedi ki, malın gəlməsində problem var. Gömrükdən keçirməyə əlavə pul lazımdır. Mən də Elnura dedim ki, həmin şəxslərlə mən də görüşüm, danışım. Dedi ki, yox, lazım deyil, özüm həll edəcəm" - deyə zərərçəkmiş qeyd edib.

**S.Ağayev deyib ki, hazırda Elnur İbrahimovun ona 100 min manat borcu var:** "Bunu da notariusda təsdiqləyib. Özü də etiraf edir".

**Suallara cavab verən S.Ağayev deputat oğlu Həbib Axundovun bu işdə Elnur İbrahimovla şərikliyinin hansı qaydada olmasını belə izah edib:** "Həbibin gömrükdəki işləri həll etdiyini eşitmişdim. Bildiyim qədər Həbibgillə də şərikli işi var idi. Ona görə də mən Elnura deyəndə ki, səninlə şərik olanlarla görüşmək istəyirəm, o, razılaşmadı. Çünki onlarla da iş görürdü. Ona görə də işin pozulmasını istəmirdi".

Elnur İbrahimov ittihamla özünü təqsirli bilmir. Deyir ki, 2007-2009-cu illərədək "İntelekt" MMC-də kuryer və satış meneceri, daha sonra isə "OfisOne" şirkətində satış meneceri işləyib. O, ifadəsində göstərib ki, müxtəlif şirkətlərdən nisyə mal alaraq satmağa başlayıb.

Müxtəlif şəxslərdən əvvəlcə xırda məbləğlər alaraq iş görən E.İbrahimov onlara qısa zamanda qazancları da qaytarıb. Bu işlər bir müddət davam etdikdən sonra Elnur İbrahimov daha çox qazanc əldə etmək üçün işlədiyi şəxslərdən böyük məbləğlərdə borclar almağa başlayıb.

İttihama görə, təqsirləndirilən E.İbrahimov zərərçəkmişlər - Elvin Vəliyev, Fərman Məmmədov və digərlərindən biznes qurmaq adı ilə ümumilikdə onların 1 milyona yaxın pulunu alıb.

Bu işdə deputat Elmira Axundovanın oğlu Həbib Axundov da zərərçəkmiş kimi tanınır.

Məlumata görə, E.İbrahimovla deputatın oğlu dost olub. Cinayət işi başlanılan zaman E.İbrahimov ölkədən qaçıb, daha sonra Rusiyada həbs edilib.

Onu da qeyd edək ki, zərərçəkmişlərin bir neçəsi pulu E.İbrahimova deyil, H.Axundova veriblər.

❑ **İlkin MURADOV, Musavat.com**

# 18 yaşlı qızın ölümünə görə klinikanın direktoru cinayət işinə cəlb edilib

**"StarMed" klinikasında cərrahiyyə əməliyyatı zamanı dünyasını dəyişmiş 18 yaşlı qızın ölümündə daha bir vəzifəli şəxs də cinayət işinə cəlb edilib. "Report"un xəbərinə görə, cərrah Sənan Mehdiyev və anestezioloq Emin Quluzadə ilə birgə klinikanın direktoru Cəbrayıl Sultanova qarşı istintaq orqanı tərəfindən ittiham irəli sürülüb.**




O, Cinayət Məcəlləsinin 314.2 (səhlənkarlıq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə təqsirli bilinir. C.Sultanovun barəsində başqa yerə getməməklə bağlı qətimkan tədbiri seçilib.

Dünən Yasamal Rayon Məhkəməsində, hakim Azər Tağıyevin sədrliyi ilə hazırlıq iclası keçirilib. Prosesdə klinikanın direktoru C.Sultanovun vəkili Vüqar Babayev vəsatət qaldırıb. O, müvəkkilinin günahsız olduğunu deyib və cinayət işinə xitam verilməsini istəyib.

Vəsatətlə bağlı qərar növbəti iclasda elan olunacaq.

Məhkəmənin baxış iclası iyulun 5-nə təyin edilib.

Xatırladaq ki, 2015-ci ilin mart ayında "StarMed" klinikasında qeyri-müəyyən şəraitdə əməliyyat vaxtı yeniyetmə 18 yaşlı qız Leyla Mürsəlova dünyasını dəyişib. Bununla bağlı Yasamal Rayon Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Daha sonra əməliyyatı aparmış cərrah Sənan Mehdiyev və anestezioloq Emin Quluzadə cinayət işinə cəlb edilib. Onların barəsində Cinayət Məcəlləsinin 314.2 (səhlənkarlıq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə əlavə ittiham irəli sürülüb.

Sənan Mehdiyev və Emin Quluzadə barəsində polisin nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

Qeyd edək ki, bir müddət əvvəl Yasamal Rayon Məhkəməsinin qərarı ilə bu cinayət işi təqsirləndirilən Sənan Mehdiyev və Emin Quluzadəyə daha ağır ittiham irəli sürülməsi üçün Bakı Şəhər Prokurorluğuna qaytarılıb.



# Oliqarxların tikdirdiyi binalar boş qalıb

## İpoteka Fondunun banklara qoyduğu qadağanın daha bir gerçək səbəbi

**İpoteka və Kredit Zəmanət Fondu tərəfindən kommersiya banklarına xəbərdarlıq edilib. Bu barədə bank sektorundan verilən məlumata görə, xəbərdarlıqda banklara Bakı şəhərində 1970-ci ilə qədər tikilmiş mənzillərin ipotekaya salınmaması göstərişi verilib.**

Mənbə qeyd edir ki, yenilik şəhərdəki yeni tikililərin bazarda payının artırılmasına hesablanıb. Bunun isə öz növbəsində mənzil bazarında bahalaşmaya gətirib çıxaracağı proqnozlaşdırılır(Modern.az).

Bəzi mənbələr bildirirlər ki, İpoteka və Kredit Zəmanət Fondunun bu addımı daha çox Bakıda inşa edilən göydələnlərin sahiblərinin xeyrinədir. Belə ki, paytaxtda inşa edilən binaların çoxusunda satış problemi yaşanmaqdadır. Xüsusilə şəhərin mərkəzi və mərkəzinə yaxın ərazilərdə inşa olunan çoxmərtəbəli binalardan mənzil satışı çox aşağı səviyyədədir. Baha qiymətə olan bu mənzillərin əksəriyyətinin hələ də satılmadığı deyilir. Bildirilir ki, fondun 70-ci ilədək tikilmiş olan binalardakı mənzillərin ipoteka ilə alınmasına qadağa qoyması bu vəziyyəti dəyişməyə yönəlib.

Onu da qeyd edək ki, 2018-ci il aprelin 30-na fondun vəsaiti hesabına verilən ipoteka kreditlərinin həcmi 1 milyard manatı ötüb. Fondun fəaliyyət dövrü ərzində 22 mindən çox adam ipoteka ilə mənzil əldə edib.

**"MBA Group" konsaltinq şirkətinin baş direktoru, daşınmaz əmlak sahəsində ekspert Nüsrət İbrahimovun sözlərinə görə, 1970-ci illərədək əsasən kommunalkalar, "italyan, "stalinka", "xruşşovka"lar tikilib:** "Ondan sonra Leninqrad, Kiyev və eksperimental layihəli binalar tikilib. Bakı şəhərində sovetdənqalma 4 minə yaxın bina var. Bunların təxminən yarısı 70-ci illərədək tikilənlərdir".

**İpoteka Fondunun xəbərdarlığı barədə məlumatı olmadığını deyən ekspert hesab edir ki, belə bir addımın bazarda yeni binalardan mənzil alışına ciddi bir təsiri olmayacaq:** "Ümumiyyətlə, 2006-cı ildən bəri satışların dinamikasını izləyirik. Müşahidələrimiz göstərir ki, əvvəllər yeni binalardan mənzil alışı ümumi satışların 3 faizini təşkil edirdisə, indi bu rəqəm 50 faizədək yüksəlib. Zaman keçdikcə, onsuz da insanlar yeni binalardakı mənzilləri almağa üstünlük verirlər. Bu, təbii bir prosesdir".

Yeri gəlmişkən, bildirək ki, hökumətin həyata keçirdiyi pilot layihələr çərçivəsində ötən ildən etibarən Bakı şəhərində inşa olunan köhnə binaların, əsasən isə beşmərtəbəli "xruşşovkalar"ın sökülərək yerində çoxmərtəbəli binaların tikintisinə start verilib. İndiyədək paytaxtın 40-dək ərazisində belə yeni yaşayış binalarının tikintisi başladılıb. Gələcəkdə digər köhnə binaların da bu yolla yeniləri ilə əvəz olunması nəzərdə tutulur.

❑ **DÜNYA, "Yeni Müsavat"**




# Sumqayıtda oğul atasını öldürüb dənizə atdı

**Sumqayıtda törədilən qətlin üstü açılıb. Sumqayıt şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, Sumqayıt şəhərində dənizdən üzərində xəsarəti olan kişi meyiti aşkarlanıb. Araşdırmalar nəticəsində meyiti tapılan şəxsin şəhər sakini, 1965-ci il təvəllüdlü Elşən Mikayıl oğlu İsgəndərov olması müəyyənləşib.**

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, is üzrə müvafiq ekspertizalar təyin edilib.

Həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən mərhumun oğlu İsmayıl İsgəndərov şübhəli şəxs qismində tutulub.

YENİ MÜSAVAT
N 138 (7027) 29 iyun 2018




Cümə söhbətləri

# İnsanı sevmək vəzifəsi



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Bismilləhir-Rahmənir-Rahim**

**Ötən bəhslərimizdə biz yeni bir müstəvidə söhbətə başladıq və o bəhsimizin məzmunu bundan ibarət idi ki, insanların bir-birindən fərqlənməsinə - birinin ağdərili, birinin qaradərili, olmasına, birinin inanan, digərinin inanmayan olmasına baxmayaraq, müəyyən mövzular ətrafında hamı ümumi bir fikrdədirlər. Bir mövzu, bir məsələ var ki, onun adı gələndə hər bir kəs ki, normal insandır - bu məsələ önündə ehtiramını ifadə edir. Söhbət insani dəyərlərdən gedir.**

## Hamı belə etsə...

Biz gəlib bu hissəyə çatdıq ki, bu insani dəyərlər arasında xüsusi çəkisi ilə seçilən bir fenomen var. Hətta belə demək olar ki, bu insani dəyərlərin cövhərini, qəlbini təşkil edən bir dəyər var. Bu dəyər - insanın bəşər övladına olan məhəbbətindən yoğrulan, ülvi İlahi hissdən irəli gələn davranış konsepsiyasını ehtiva edir. Bu dəyəri bəşəriyyətə olduğu kimi tanıtdıran, onu müxtəlif ötəri nəsnələrdən xali bir durumda təqdim edənlər - İlahi peyğəmbərlər (ə) və onların bu mübarək missiyasının davamçıları olan İmamlar (ə) olub.

Bir əlamətdar nöqtəyə də toxunduq ki, Allah Kitabı olan Qurani-Kərimdə Peyğəmbərimizin (s) insana olan sevgisinin şiddətinə işarə olunub. Allah Təala Rəsuli-Əkrəmə (s) xitabən buyurur ki, sən o qədər narahatsan, sənin o qədər ürəyin yanır insanların hidayət olub-olmamasına ki, az qala canını həlak etmisən.

Dinimiz bizə mühüm çatdırışı var: insanın dəyərini bir keyfiyyət xüsusi artırır. Bu keyfiyyət, ümumi olaraq, "dərdli olmaq" kimi səciyyələnir. Mal-dövlətin, kreslonun, karyeranın dərdlisi deyil, bəşəriyyətin dərdlisi, insanın səadətinin dərdlisi olmaq. İnsanın aqibəti üçün narahat olmaq. İnsanları sevmək vəzifəsi bir insani missiya kimi təqdim edilir dinimiz tərəfindən.

Bir əlamətdar misala toxunduq ki, İmam Əli (ə) qeyri-müsəlman qadına qarşı olan zülmdən bağrı çatlayan müsəlmanın, həyatını itirən müsəlmanın ölümünü "kişiyə layiq bir ölüm" adlandırmışdır.

Sonra isə İmam Cəfər Sadiqin (ə) mübarək nümunəsindən bəhrələndik. Qıtlıq zamanı İmamın (ə) öz malını bazara çıxarması, qıtlığın azalmasına töhfə verməsi ilə bağlı rəftarına, toplumla bağlı fərdin üzərinə düşən məsuliyyətdən bəhs edən nümunəyə toxunduq.

Maraqlıdır ki, İmam (ə) bahalığın qarşısını almağa töhfə vermək üçün xidmətçiyə tapşırıq verəndə ki, evdə olan malların hamısını bazara apar, bu hadisəni nəql edən xidmətçi deyir: mən təəccüblə İmama (ə) üzümü tutaraq söylədim ki, bu, nə tapşırıqdır Siz buyurursunuz? Ximətçi anlaya bilmir ki, İmam (ə) nə istəyir. İmam (ə) yenidən sözünü təkrar edir və təkidlə buyurur ki, evdə olan bütün azuqə bazara aparılmalıdır. İmam (ə) bir nümunə qoyur ki, el-obaya çətinlik gəldiyi məqamda özünü düşünmə, çalış maksimal surətdə problemlərin çözülməsinə yardım edəsən. Elliklə çətinliklərdən çıxmaq daha asan olur, daha məhsuldar olur.

## İstəmək zəhmətini onun üzərindən götürmək

Buradan çıxarılan insanpərvərlik dərsi, cəmiyyətin qeydinə qalmaq, toplumun dərdinə fərdin şərik olması dərsləri araşdırıldı. Bir nöqtə də qeyd edilmədir ki, İmamlarımız (ə) nəinki nəzəri halda, teoretik halda insanların dərd-sərini düşünüblər, əslində onlar praktik halda bunu təzahür etdiriblər. Həm özləri insanları düşünmək, insanları sevmək, toplumu nəzərə almaq həyatını yaşayıblar, həm də başqalarına bunu canlı surətdə nümunə kimi göstəriblər.

Axı aydındır ki, bazarda qıtlıq yarananda sərgilənən davranış kimi sadə bir misalda əgər hər kəs İmam Sadiq (ə) kimi rəftar etsəydi, yaranan acınacaqlı vəziyyət dərhal həll olardı. O insanlar ki, belə etməyə imkanları yoxdur, bu cür edənlərin sayəsində problemlərini həll edərdilər. Məhz beləcə zəncirvari reaksiyanın getməsi sayəsində toplumda problemləri həll etmə vərdişləri yaranır.

Diqqət etsək, sadə həyati situasiyalarda sərgilədikləri yanaşma ilə İmamlarımız (ə) cəmiyyətdə işlək özünütənzimləmə mexanizmlərinin əmələ gəlməsinə və bu mexanizmlərin sayəsində toplumda yarana biləcək problemlərin aradan qalxmasına, yeri gəldikdə, bu problemlərin önlənməsinə xidmət edən bir dəqiq yollar göstəriblər. Dinimiz cəmiyyətdə qarşılıqlı yardıma hər zaman təşviq etmişdir. İmam Əlidən (ə) nəql edirlər: **"Sizlərdən hər biriniz qardaşının ehtiyacının olmasını bildiyi zaman, (gərək) istəmək zəhmətini onun çiynindən götürsün".**

Görürük ki, o qədər helmli, alicənab və diqqətli olmağa çağırış var burada ki, ehtiyaclı insan heç öz ehtiyacını dilinə belə gətirmədən, toplum üzvləri onun ehtiyaclarını ödəməyə tələssinlər. Həmin insanın izzəti-nəfsi də gərək zədələnməsin, qüruru əldən getməsin. Cəmiyyətin ahıl, şikəst, xəstə, yetim təbəqələrini qayğı ilə əhatə edən proqramların fəaliyyət göstərməsinə əməli tövsiyə var burada.

İmam Sadiq (ə) buyurub: **"Nə qədər ki, mömin öz qardaşına kömək edir, Allah da ona yardım edər".**

## İmanlı insan üçün gerçək fəaliyyət düsturudur bu.

Digər yerdə İmam Sadiqdən (ə) belə nəql edirlər: **"Əgər ehsan və yardım səksən əldən keçsə belə, sahibinin əcrindən heç nə azalmadan onların hamısının mükafat qazanmalarına səbəb olar".**

Görürük ki, davamlı və sistemli xeyriyyə proqramlarının həyata keçirilməsinə dəvət var burada. Tək-tük təzahürlərdən çox, kütləvi halların yaşanmasının üstünlüklərinə diqqət var burada.

## Yalançı zirəklik

Amma obyektiv həqiqət budur ki, bu gün dünyada bunun əksi müşahidə olunur. Bəşər bu gün daha çox fərdiçilik yanaşmasına meyillidir. Bir çox məfkurələrdə qıtlıq zamanı fərqli reseptlər təklif olunur. Orada deyilir ki, zirək tərpən, mənfəət dalınca ol. Gördün ki, bazarda qıtlıqdır - malı gizlət, daha baha olmağını gözlə. Qoy insanlar aclıq çəksin, evdən nəsə satıb, çörəyə versin - sən işində ol. Hələ nəinki qıtlıq zamanı mal gizlətmək zirəklik sayılır bugünkü dünyada, hətta normal sayılır ki, həmin bu qıtlığı süni surətdə yaradılsın, bazar iştirakçıları möhtəkirlik etsin, inhisarçılıq etsin, camaatın cibinə girsin.

Heç uzağa getməyək. Bugünədək dünyanı silkələyən maliyyə böhranı məhz bu cür inhisarçılığın, möhtəkirliyin, cürbəcür məkrli sxemlərin nəticəsidir. Milyonlarla insan müflis olur, bədbəxtliyə düçar olur, evsiz-eşiksiz qalır, amma bu zaman bir ovuc inhisarçı işbaz varidatını birə-on artırır, itlərinə daş-qaşlı xalta taxır, xalis qızıldan düzəldilən əlüzyuyanlardan istifadə edir. Oxşar hadisələr ölkəmizdə də cərəyan edir. Amma varmı bütün bunlara dünyada güclü ictimai qınaq? Əsla! Bir çox insandan xəbər alsan, deyəcək zirək adamlardır. Hələ bir "bacarana can qurban" kimi absurd şüarlarla belə iqtisadi və mənəvi vandallığa bəraət də qazandıracaqlar. Bax, qeyri-İlahi dəyərlər sisteminin təqdim etdiyi yanaşma budur. "Sən öz karına qal, özgələr ilə nə işin" məntiqi burada prioritet rol oynayır.

Əks sistemdə - Həzrət Peyğəmbərin (s) gətirdiyi və məsum İmamların (ə) yaşatdığı mübarək sistemdə - insandan başqa davranış konstruksiyası gözlənilir. Burada istənilir ki, sən insan olaraq qayğılı olasan digər insanların dərdləri ilə. Laqeyd olmayasan, bivec olmayasan. İnsanlara məhəbbətin olsun. Qəlbin məhəbbətlə şölələnsin.

## Qəlbini məhəbbətlə doldur

Həzrət Peyğəmbər (s) - bəşərin tərbiyəçisidir. Tək öz dövrünün deyil, bütün dövrlərin insanları üçün kamil insan olmağın yollarını göstərir. Biz görürük ki, insanların bir-birinə münasibətinin optimal olmamasından narahat olan Rəsuli-Əkrəm (s) insanlara: "Nə olub sizə?!" deyə müraciət edir. Rəsulullahın (s) missiyası - insanlara məhəbbət dərsi keçməkdir, insanlıq dərsi keçməkdir. Odur ki, müraciət edir topluma, deyir nə olub sizə? Rəsulallahın (s) bu mübarək cümləsi hər zaman üçündür, hər gün üçündür.

Mücərrəd yanaşmayaq dinimizin konkret tövsiyələrinə. Peyğəmbərimiz (s) deyir: nə olub sizə? Bir-birinizə sevginizi, məhəbbətinizi niyə bildirmirsiniz? Bir-birinizə dostcasına, məhəbbətlə niyə nəsihət etmirsiniz? Bir halda ki, İlahi məntiqə görə sizlər bir-birinizin qardaşısınız. Bax beləcə Peyğəmbərimiz (s) ayıldır bizi. Bax beləcə məhəbbətlə yönəldir məhəbbətli həyat sürməyə.

**"Merac" hədisində Allah Təalanın adından nəql olunur: "Ya Muhəmməd! Mənə görə biri-birinə məhəbbət bəsləyənlərin Mənim məhəbbətimə haqları var. Mənə görə öz aralarında mehriban olanların Mənim məhəbbətimə haqları var. Mənə görə biri-biri ilə əlaqə yaradanların Mənim məhəbbətimə haqları var. Mənə təvəkkül edənlərin Mənim məhəbbətimə haqları var. Mənim məhəbbətimin nə bir nişanəsi, nə sonu, nə həddi var. Onlar üçün bir nişanə ucaltsam, bir nişanə də endirərəm".**

Digər bir xatırlama. İmam Əlinin (ə) Malik Əştəri Misir valisi təyin etdiyi fərmanından: **"Qəlbini camaata qarşı mehr-məhəbbət və lətafətlə doldur..."**

Yaxud biz görürük bir başqa mübarək hədisdə İmam Sadiq (ə) topluma, insanlara bir-biri ilə necə yaşamaq, necə davranmaqla bağlı tövsiyələr verir. İmam Sadiq (ə) buyurur ki, bağlanız bir-birinizə, bir-birinizdən qırılmayın. Bir-birinizə nisbətdə yaxşılıq və mehribançılıq ediniz. Bir-birinizin xeyrini istəyən qardaşlardan olunuz. Necə ki, Allah Təala bunu sizlərdən istəmişdir...

## İnsan - ictimai varlıqdır

Mübarək İslam mətnlərinə, Rəsuli-Əkrəm (s) sözünə, İmam Əli (ə) bəlağətinə nəzər saldıqda, bir mühüm mövzunun parlaq bir haqq kimi nəzərə çarpmasını görürük. Bu həqiqət ondan ibarətdir ki, insan ictimai bir varlıqdır. İnsanın ictimai varlıq olması, onun öz fərdi məsələlərini həll etməklə yanaşı, cəmiyyət üzvü olaraq da üzərinə düşən vəzifələri də həll etmək missiyasını ehtiva edir.

Daha aydın söyləsək, belə anlanılar: insan bir varlıqdır ki, onun yetişməsi, onun tam inkişafı, kamilləşməsi ancaq toplumda mümkündür. Hətta tədqiqatlar onu göstərir ki, insan o dərəcədə ictimai məxluqdur ki, əgər onu müəyyən inkişaf yaşına qədər tək saxlasan və başqa insanlarla ünsiyyəti olmasa, həmin şəxs elementar insani keyfiyyətlərə malik olmaz. Danışa bilməz, çox şeyi dərk edə bilməz, şüuru o qədər də inkişaf etməz.

Təhlillər göstərir ki, toplumda yaşayan insanın 5 yaşına qədər əldə etdiyi sadə vərdişləri, təcriddə yaşayan şəxs heç onilliklər ərzində də müstəqil əldə edə bilmir. Adicə elə bu göstərir ki, insan nə dərəcədə ictimai varlıqdır. Onu göstərir ki, insan, insanlar arasında yaşamaq üçün göndərilib. Əslində, insanın başqa varlıqlardan fərqi də elə məhz budur. Yuxarıda araşdırdıqlarımız mövzular da elə bunun üzərindədir. İnsanın ictimai varlıq olaraq üzərinə düşən vəzifələri ətrafındadır.

Amma burada bir mühüm məqam da ortaya çıxır. Toplum, əslində müəyyən mühitlər formalaşdırır. İnsan da bu mühitlərin təsiri altına düşə bilir. Müsbət və mənfi mənada. İnsan bir mühitə düşə bilər ki, orada insanlar səmimidir, qurucudur, mehribandır, haqqı deyəndir, İlahi dəyərləri yaşadandır. Təbii ki, bu mühitdə insan həmin keyfiyyətləri tədricən qəlbinə hopduracaq, bu xüsusiyyətlər onun daxilinə keçəcək. Amma elə də ola bilir ki, insan yaltaq, yalançı, riyakar, iblisvari mahiyyətli bir mühitə düşsün. Bu halda o, mühitin təsirinə qarşı gerçək daxili immunitetə malik olmalıdır. Olmasa, vücudən həlak olar. Mühit insana deyir ki, gəl mənə oxşa, mənim rəngimi özünə götür. Etsən, insanların razılığını qazanarsan, sənə "afərin!" deyərlər. Amma ağlı başında olan insan anlayır ki, mühit ola bilər səhv etsin, səhv dəyərlər aşılasın. Elə deyil ki, mühit necə istəsə, haqq elə odur. İnsanın dəqiq meyarları olmalıdır bunları təhlil edib, düzgün yolu seçmək üçün.

Bu mövzu ilə əlaqədar İmam Museyi-Kazimdən (ə) gələn bir mübarək kəlama nəzər salaq. İmam Museyi-Kazim (ə) özünün məşhur şagirdlərindən biri olan Hişam ibn Həkəmə müraciətlə buyurur. Deyir: **"Ey Hişam, əgər sənin əlində bir ədəd qoz olsa, ancaq adamlar onu mirvarı adlandırsalar, bunun sənə heç bir xeyri yoxdur. Çünki sən bilirsən ki, bu, qozdur, mirvari deyil".**

Bəli, adama çox şey deyərlər. Adama günahı savab kimi göstərərlər. Adam yaltaqlıqla vəzifəyə gedəndə, deyərlər müasir adamdır, zəmanə adamıdır. Adam prinsipiallıq göstərəndə, əqidəli olanda mühit deyə bilər ki, o, geridəqalmışdır, zəmanə adamı deyil.

Əgər insanın əqidəsi, vicdanı varsa, o, camaatın ona nə deməsindən asılı olmayaraq, əməllərini Allaha xoş gələn kimi edəcək, kiməsə yarınmaq üçün yox. Mümkündür insana deyələr ki, rüşvətxorluq, haqq basmaq, qocaların, yetimlərin cibinə germək, həqiqəti danmaq pis iş deyil, hamı belə edir. Mümkündür bütün bu eybəcərlikləri bəzəyib-düzəsinlər, insanın gözündən pərdə asmaq istəsinlər. Amma insan əqidəlidirsə, o, bütün bu oyunlara imza atmayacaq. O, unutmayacaq ki, camaatın dediyinə rəğmən, əlindəki mirvari deyil, qozdur...

Bu ürək, bu qəlb - Allahın insana verdiyi əmanətdir. Gərək insan oraya heç bir mənfilikləri, eybəcərlikləri buraxmasın. Mühit ondan qeyri davranışı gözləsə də belə. Gərək şərəfini, ləyaqətini, şəxsiyyətini qorusun. Gərək qoymasın qəlbi paslana, çürüklük qəlbinə yol tapıb, onu həlak edə. Gərək hər zaman Allahın razılığını düşünsün, vicdanı ilə harmoniyada olsun.

**Allahım! Bizləri Həzrət Peyğəmbərin (s) və onun pak Əhli-Beytinin (ə) haqq və ədalət yolunda sabitqədəm olanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

*N 138 (7027) 29 iyun 2018*

# Artıq gözmuncuğu yox, onu taxırlar

**Artıq dünya miqyasında gözmuncuğunu əvəzləyən yeni bir aksessuar tapılıb. Bu, şans və qismətin simvolu sayılan balıqdan ilham alınaraq istehsal edilmiş boyunbağıdır. Bu əşya xüsusən Qərb ölkələrində getdikcə populyarlaşmağa başlayıb.**



Məşhurların dizayneri olan Ben Baller bugünlərdə 20 min dollara brilyantlarla bəzədilmiş "qol balığı" şəklində boyunbağı hazırlayıb. Onu da məşhur ulduzlardan birinin alması ilə balıqlı gözmuncuğu populyarlaşıb. Gözmuncuğuna rəqib olaraq göstərilən şanslı balıq boyunbağısını artıq bir çox məşhur markalar öz kolleksiyasına əlavə edib. "Claire's", "Asgold Jou", "Etsy" kimi markaların da belə gözmuncuğu var.



## Onlar hecaları ana bətnindən bilirlər

**Fransız elm adamları tərəfindən aparılan araşdırma 28 həftəlik körpələrin ana bətnində hecaları ayırd edə biləcəyini sübut edib. Beynəlxalq Elmlər Akademiyasında nəşr olunan araşdırmada 12 yarımçıq doğulan körpənin beyin daramaları araşdırılıb. Bundan başqa, 28 həftəlik uşaqlar ana bətnində ikən qadın və kişi səsləri ilə yanaşı, "qa" və "ba" kimi hecaları da ayırd edə bilirlər. Körpələrin ana bətnində eşitmə qabiliyyətini inkişaf etdirən beyindəki eşitmə bölməsi hamiləliyin 23-cü həftəsində meydana gəlir. Alimlər körpələrin ana bətnində eşitmə qabiliyyətinə sahib olduğunu bildirir. Amma indi onların danışıq qabiliyyətini qazanma bacarığının ana bətnində, yoxsa dünyaya gəldikdən sonra yaranması müzakirə olunur.**

## Nyu yorklulara şəkərli içki qadağası

**Amerikanın Nyu York şəhərində restoran və kinoteatrlarda böyük ölçüdə şəkərli içkilərin satışına məhdudlaşma gətirilib. Şəhərin səhiyyə idarəsi rəhbəri deyib ki, şəkərli içkilər şişmanlığın ən böyük qaynağıdır. Bununla belə, sözügedən qadağa mağazaları əhatə etmədiyi üçün bu aksiyanın böyük effekt verəcəyi gözlənilmir. Amma amerikalı həkimlər ümid edir ki, bu yasaq sayəsində insanlar az da olsa, daha normal qidalanma vərdişinə yiyələnəcək. Amerika şişmanlığın aradan qaldırılması üçün silsilə planlar qurur. Çünki şişmanlıq bir çox qarmaşıq xəstəliklərin də carçısıdır.**

# Beynimizi kimlər oxuya bilər?

**Beynimizin dərinliyində olan məlumatlar təhlükəsiz yerlərdədirmi? Bir qrup amerikalı və ingilis alimin fikrinə görə, bu sualın cavabı "xeyr" şəklindədir. Alimlər kompüter oyunları üçün istifadə edilən bir alət sayəsində kompüter istifadəçilərinin beynini oxuyaraq gizli məlumatlar əldə ediblər.**

Berkli (ABŞ), Oksford (Britaniya) və Cenevrə (İsveçrə) universitetlərinin mütəxəssislərindən ibarət bir qrup bu yolla insan beyninin hakerlənə biləcəyini deyir. "Emotiv" adlı cihaz əldə istifadə edilmədən oyun oynamağa kömək edən vasitədir.

Könüllülər qrupuna "emotiv" taxılıb və kompüter ekranında bankların adları, şəkilləri, tanıdıqları şəxslərin adları, şifrələr nümayiş etdirilib. Tanış obyektləri görən beyin P300 adı verilən özəl bir siqnal verib. Alimlər bu siqnalı izləyərək gizli məlumatları əldə ediblər. Sınaq 40 faiz uğurla nəticələnib. Qeyd edək ki, "emotiv"in satış qiyməti 299 dollar civarındadır.





## Kişilər evlənəcəkləri qadının üz gözəlliyinə fikir verir

**Kişilərin qadınları hansı parametrlərə görə seçməsi ilə bağlı müxtəlif araşdırmalar aparılıb. Son belə araşdırmalardan birinin nəticəsinə görə, kişilər qısamüddətli əlaqələr üçün seçdikləri qadınların daha çox bədən quruluşuna üstünlük verirlər. Lakin evləndikləri qadınlarda üz gözəlliyini əsas tuturlar.**

Texas Universitetinin (ABŞ) alimləri bu amili onunla əlaqələndirirlər ki, qadınların üz cizgilərinə görə onun hansı keyfiyyətlərə malik olması, nəsli davam etdirmək imkanlarını müəyyənləşdirmək daha asandır. Təcrübələrdə 375 qadın və kişi iştirak edib. Qadınların üzləri və bədən quruluşlarının müəyyənləşdirilməsi çətin həddə qədər aparılıb. Qadınlar gələcək ömür-gün yoldaşlarını karyera, iş və xarakter meyarlarına görə seçir.




**QOÇ** - Hansısa xoşagəlməzlik gözlənilmədiyi üçün qarşınızda duran vəzifələri həyata keçirməkdə heç bir problemlə üzləşməyəcəksiniz. Bir sözlə, gün ərzində bütün ixtiyar öz əlinizdədir.

**BUĞA** - Həddindən ziyadə maraqlı bir təqvimlə üz-üzəsiniz. Rastlaşdığınız adamların əksəriyyətindən sizə sevinc payı düşəcək. Başınızda dolaşan qorxunc və pis fikirlərdən daşının.

**ƏKİZLƏR** - Qarşınızda olduqca düşərli bir gün durur. Daxilən vicdanlı və təmiz olduğunuzu sübut etməyiniz vacibdir. Çoxlarına sevinc bəxş edə bilərsiniz. Yalnız müqəddəs şeylər barədə düşünün.

**XƏRÇƏNG** - Ötən on gündə nail ola bilmədiyiniz maliyyə uğurlarına yetişmək üçün böyük şansınız var. Bunun üçün bürcünüzün "hakimiyyətdə" olmasından maksimum istifadə etməlisiniz. Acıdil olmayın.

**ŞİR** - Saat 16-ya qədər şanslı məqamlarla rastlaşacağınız güman olunur. İşgüzar danışıqlar aparmaq, köhnə planlara yenidən qayıtmaq uğurludur. Sonrakı saatlarda isə özünüzü qorumalısınız.

**QIZ** - Bu əsrarəngiz gündə daha çox müqəddəs işlərlə məşğul olun: ibadətlərinizi saxlamayın, hamıya xeyirxahlıq diləyin, bəd fikir yaymayın, qarşınıza çıxan şanslardan düzgün istifadə edin.

**TƏRƏZİ** - Təxminən saat 11-dən 15-ə qədər ayıq-sayıqlığınızı itirməsəniz, gün ərzində ovqatınıza mənfi təsir edəcək hadisələrlə rastlaşmayacaqsınız. Gün ərzində riskli işlərə başlamamalısınız.

**ƏQRƏB** - İşgüzar görüşlərdə iştirakınız gözlənilir. Belə sövdələşmələrdə ehtiyatlı olmağınız vacibdir. Əks təqdirdə, məyus ola bilərsiniz. Tərəddüd etdiyiniz bütün işləri təxirə salın.

**OXATAN** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə fəaliyyətə ara verəsiniz. Bütün vaxtınızı gəzinti və əyləncələrə həsr edin. Məhəbbətdən ilham almağa çalışın. Spirtli içkidən uzaq olun.

**OĞLAQ** - Uğursuz Ay bürcünüzə daxil olduğu üçün yeni və riskli işlərinizi təxirə salın. Səhhətinizdə xırda narahatçılıq gözlənilsə də, müqəddəs yerlərə getməklə bunu həll edə bilərsiniz.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimi daha çox başqa ünvanlarda keçirəsiniz. Çünki öz evinizdə maraqlı heç nə olmayacaq. İş yerində gücünüz çatmayan adamlarla baş-başa gəlməkdən çəkinin.

**BALIQLAR** - İş barədə məhsuldar gün olmasa da, nahardan sonra darıxdığınız adamlarla görüşməyə çalışın. Uzaq yola çıxmaq uğurlu deyil. Sevgi münasibətlərinin tənzimlənməsində təşəbbüskarlığı ələ alın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Əgər siz 46 yaşınıza çatıbsızsa...



**İnsan həyatının gənclik mərhələsi ilə bağlı müxtəlif fikirlər var. Hər kəs gənclik və orta yaş dövrünün başlaması ilə əlaqədar fərqli yaş dövrünü göstərir. Bu gün də bu rəqəm mentalitet, ölkə və yaşayış tərzindən asılı olaraq dəyişir.**

Məsələn, Yaxın Şərqdə 14 yaşdan etibarən uşaqlar yetkinlik yaşına çatmış hesab olunurlar. Qərbdə isə 18-21 yaş yeniyetməlik hesab edilir. Britaniyalı mütəxəssislərin araşdırmasına görə, bu gün ingilislərin çoxu orta yaş mərhələsinin 55 yaşdan sonra başladığını müəyyənləşdirib. Onların fikrincə, 46 yaşdan sonra insan gəncliyini başa vurur, isveçlilərdə bu rəqəm 34, yunanlarda isə 52-dir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.